# POLİQLOT

№ 4 (248) may-iyun 2018 | Təsisçi: Azərbaycan Dillər Universiteti | www.adu.edu.az


# ADU-nun möhtəşəm layihəsi

## İLK DƏFƏ OLARAQ TƏLƏBƏLƏR MƏCBURİ KÖÇKÜN MƏKTƏBLƏRİNDƏ TƏCRÜBƏ KEÇİBLƏR




Fevralın 15-də Azərbaycan Dillər Universitetində (ADU) 2017-2018-ci tədris ilində bakalavr ali təhsil pilləsində təhsillərini başa vuran tələbələrin pedaqoji və istehsalat təcrübəsinə həsr olunan konfrans keçirilib.

Açılış nitqi ilə çıxış edən ADU-nun rektoru, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Kamal Abdulla tələbələri pedaqoji təcrübəyə yollanmaları münasibəti ilə təbrik edib. Rektor ilk dəfə olaraq tələbələrin bir qisminin ölkəmizin müxtəlif rayonlarında yerləşən məcburi köçkün məktəblərində pedaqoji təcrübə keçəcəyini diqqətə çatdıraraq bu fədakar və nəcib işin həm universitet, həm də məktəblər üçün öz bəhrəsini verəcəyini vurğulayıb. K.Abdullanın sözlərinə görə, artıq universitetin əməkdaşları tələbələrin göndərilməsi nəzərdə tutulan məktəblərə baş çəkərək vəziyyətlə yerindəcə tanış olublar. O, qeyd edib ki, rayonlarda tələbə və metodistlərin normal yaşayışı üçün lazım olan hər cür şərati yaradılacaq və onların ezamiyyət xərcləri universitet tərəfindən ödəniləcək.


Davamı səh. 5-də


# “Azərbaycan tərcümə ensiklopediyası” kitabı işıq üzü görüb




Azərbaycan Dillər Universitetinin Elmi Şurasının qərarı (28 fevral 2018-ci il, pr. № 16) ilə nəşr olunan “Azərbaycan tərcümə ensiklopediyası” kitabı universitetin rektoryanı şurasının iclasında təqdim edilib.

Ölkəmizdə ilk dəfə oxuculara təqdim olunan “Azərbaycan tərcümə ensiklopediyası”nda tərcümənin fəlsəfi əsasları, predmet və problemləri, Azərbaycanda tərcümə tarixinin mühüm məqamları, nəzəri-praktik məsələləri, həmçinin personaliyalar əhatə olunub.

Ensiklopediya həm Azərbaycan dilinə, həm də Azərbaycan dilindən digər dillərə tərcümələrin müəlliflərini ehtiva edir.

Ensiklopediyada tərcüməçilər və bu sahə ilə maraqlananlar, eyni zamanda yazarlar, filoloqlar, gənc ədəbiyyatşünaslar üçün faydalı məlumatlar yer alıb. Ensiklopediyanın nəzəri və praktik hissələri, personarilər elmi işlər üçün son dərəcə ciddi və möhkəm həm faktoloji, həm də nəzəri bünövrə rolunu oynayır.

Kitabın redaksiya heyətində Kamal Abdulla (baş redaktor), Anar, Leyla Əliyeva (məsul katib), Rövşən Əliyev, Rüstəm Hacıyev, İsa Həbibbəyli, Muxtar İmanov, Teymur Kərimli, Afaq Məsud, Azər Mustafazadə, Möhsün Nağısoylu, Tofiq Nağıyev təmsil olunur. Rəyçilər isə filologiya üzrə elmlər doktoru, professor Cəlil Nağıyev, filologiya üzrə elmlər doktoru, professor Aydın Ələkbərov, filologiya üzrə elmlər doktoru, professor Lidiya Qranovskaya və filologiya üzrə fəlsəfə doktoru Etibar Əliyevdir.

Kitabın ideya müəllifi Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Kamal Abdulla qeyd edib ki, 10 ildən çox müddət ərzində tərtib edilən bu əsər əsl bilik xəzinəsidir. Rektor əlavə edib ki, Azərbaycan ədəbiyyatında praktik tərcümə ilə bağlı heç bir vacib şəxs, heç bir əhəmiyyətli əsər bu kitabda unudulmayıb:

“Ola bilər ki, bəziləri barədə daha dolğun məlumat əldə edə bilməmişik, lakin onlar haqqında məlumatlar növbəti nəşrimizdə mütləq yer alacaq. Kitabın hazırlanmasının arxasında çox böyük zəhmət dayanır. Burada böyük bir komandanın əziyyəti var. Biz Bakı Slavyan Universitetində belə bir nəfis kitabı ərsəyə gətirmək üçün illər öncə çox ciddi işlərə başlamışdıq və artıq işimizi yekunlaşdırdıq. İnanıram ki, bu kitab tərcüməşünaslar, mədəniyyətşünaslar, filoloqlar, yazıçılar, ümumiyyətlə, elm və Azərbaycan mədəniyyətinin tərcümə üfüqlərini öyrənmək istəyən hər bir şəxs üçün son dərəcə əhəmiyyətli bir vəsait olacaq”.

Azərbaycan Dillər Universitetinin Tədris işləri üzrə prorektoru professor Əfqan Abdullayev, rektorun Elm və təhsil məsələləri üzrə müşaviri dosent Seyfəl Həsənov, rektorun Sosial məsələlər üzrə müşaviri Ələddin Əliyev, Beynəlxalq münasibətlər və idarəetmə fakültəsinin dekanı dosent İbrahim Kazımbəyli, Tərcümə və mədəniyyətşünaslıq fakültəsinin dekanı fil.f.d Bənövşə Məmmədova, Təhsil fakültəsinin dekanı professor Fikrət Cahangirov, Filologiya və jurnalistika fakültəsinin dekanı dosent Vüsalə Ağabəyli, Azad Həmkarlar İttifaqının sədri Misgər Məmmədov “Azərbaycan tərcümə ensiklopediyası” kitabının gənclərin stolüstü vəsaitinə çeviriləcəyini vurğulayıblar. Qeyd olunub ki, həm də dövlət sərəncamlarının, sənədlərin, “Dünya ədəbiyyatı kitabxanası”na daxil olunmuş əsərlərin siyahısının yer aldığı bu kitab, şübhəsiz ki, tərcümə sənəti və tərcümə elminə, Azərbaycan tərcümə tarixinə dair bir çox önəmli məqamları özündə ehtiva edir.

Qeyd edək ki, yaxın müddətdə Azərbaycan Dillər Universitetində, həmçinin digər elm və təhsil ocaqlarında, kitabxanalarda “Azərbaycan tərcümə ensiklopediyası” kitabının təqdimat mərasimi keçiriləcək.

# Serbiya Prezidentinə ADU-nun fəxri doktoru diplomu təqdim edilib

## AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİNDƏ SERB DİLİ VƏ MƏDƏNİYYƏTİ MƏRKƏZİNİN AÇILIŞI OLUB



Mayın 22-də Azərbaycan Dillər Universitetində Serb dili və Mədəniyyəti Mərkəzinin açılışı, Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiça bu ali məktəbin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimləri keçirilib.

Əvvəlcə Prezident Aleksandr Vuçiç Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdulla ilə görüşüb. Görüşdə Azərbaycan ilə Serbiya arasında əlaqələrin inkişafından məmnunluq ifadə edilib.

Sonra Azərbaycan Dillər Universitetində Serb dili və Mədəniyyəti Mərkəzinin açılışı olub.

Serbiya Prezidenti mərkəzin rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub. Dövlət başçısı mərkəzə xatirə hədiyyəsi təqdim edib.

Daha sonra universitetin Akt zalında Serbiya Prezidentinə bu ali təhsil ocağının fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi keçirilib.

Universitetin tələbələrinin ifasında Serbiyanın Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən rektor Kamal Abdulla Serbiya Prezidentinin Azərbaycanın dostu kimi tanındığını bildirib. "Əlamətdar hadisədir ki, universitetimizin Elmi şurasının qərarı ilə Serbiya Prezidenti Aleksandr Vuçiçə Azərbaycan Dillər Universitetinin fəxri doktoru adı verilib" - deyən rektor Serbiya Prezidentini təbrik edib.

Kamal Abdulla xatırladıb ki, bu yaxınlarda Belqrad Universitetində Azərbaycan dili və Mədəniyyəti Mərkəzi açılıb və Azərbaycan Dillər Universitetinin nümayəndə heyəti mərasimdə iştirak edib. Biz də Azərbaycan Dillər Universitetində çoxdan hazırlanan bir layihəni - Serb dili və Mədəniyyəti Mərkəzinin açılışını məhz dövlət başçısı Aleksandr Vuçiçin ölkəmizə rəsmi səfəri zamanı reallaşdırdıq. Rektor əmin olduğunu bildirib ki, həm Belqrad Universitetindəki Azərbaycan dili və Mədəniyyəti Mərkəzi, həm də Azərbaycan Dillər Universitetindəki Serb dili və Mədəniyyəti Mərkəzi serbiyalı və azərbaycanlı gənclərin yaxınlaşmasına, mütəxəssislərimizin birgə layihələrdə iştirakına, universitetlərimiz arasında əlaqələrin genişlənməsinə əlverişli şərait yaradacaq.

Azərbaycan xalqının multikultural xalq olduğunu deyən rektor qeyd edib ki, bizim multikulturalizm modelimiz dünyanın bir çox universitetlərində tədris edilir: "Biz bu modelimizi Belqrad Universitetində də həyata keçirmək niyyətindəyik. Bu, Serbiya multikulturalizmi ilə Azərbaycan multikulturalizmi arasında oxşar cəhətləri öyrənmək üçün imkanlar açacaq".

Daha sonra Serbiya dövlətinin başçısına fəxri doktor diplomu və mantiya təqdim olunub.



Prezident Aleksandr Vuçiç Azərbaycan Dillər Universitetinin müəllim və tələbələri qarşısında çıxış edərək bu ali məktəbin fəxri doktoru adına layiq görülməsinin onun üçün böyük şərəf olduğunu deyib. Dövlət başçısı Azərbaycan Dillər Universitetində Serb dili və Mədəniyyəti Mərkəzinin və Belqrad Universitetində Azərbaycan dili və Mədəniyyəti Mərkəzinin fəaliyyətə başlamasının bu ölkələrin gəncləri arasında əlaqələrin genişlənməsinə töhfə olacağını vurğulayıb. Qeyd edib ki, Azərbaycan və Serbiya ərazi baxımından böyük ölkələr olmasalar da, müstəqil siyasət həyata keçirirlər. Serbiya Prezidenti ölkələrimiz və xalqlarımız arasında əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirib, Azərbaycan Dillər Universitetinin kollektivinə uğurlar arzulayıb.

Daha sonra tələbələrin sualları cavablandırılıb.

# ADU-nun kitabxanası zənginləşir

## *Əməkdar elm xadimi Lidiya Mixaylovna Qranovskaya şəxsi kitablarının bir qismini ADU-ya hədiyyə edib*



İyunun 28-də Azərbaycan Dillər Universitetində (ADU) Azərbaycanda yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması və rus dilinin tədqiqi sahəsində xidmətlərinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən "Əməkdar elm xadimi" fəxri adına layiq görülən, Bakı Slavyan Universitetinin professoru Lidiya Mixaylovna Qranovskaya ilə görüş keçirilib. Görüşdə L.M.Qranovskaya şəxsi kitabxanasına məxsus olan 10 cildlik "История XIX века" və 65 cildlik "Большая Советская Энциклопедия: История до Камбиформ" kitablarını ADU kitabxanasına hədiyyə edib.

ADU-nun rektoru, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Kamal Abdulla L.M.Qranovskayanın gənclik illərində böyük həvəs və enerji ilə çalışdığının şahidi olduğunu söyləyib: "Lidiya Mixaylovna SSRİ dövründə müxtəlif elm mərkəzlərində, konfranslarda çıxışları ilə həm özünün elmi adını, həm də Azərbaycan elmini yüksəkliklərə qaldıran şəxsiyyət olub. Onun bir çox xarici ölkələrdə dəfələrlə məqalələri çap olunub. L.Mixaylovna ədəbiyyatşünaslığın çox maraqlı sahəsi ilə məşğul olur". K.Abdulla Prezident İlham Əliyevin onu yüksək elmi ada layiq görməsinin də təsadüfi olmadığını vurğulayıb: "Bu, onun zəhmətinə, əməyinə verilmiş ən yüksək qiymətdir". Rektor K.Abdulla L.M.Qranovskayanın zəngin kitabxanası olduğunu və şəxsi kitabxanasına məxsus bəzi kitabları ADU-ya bağışladığını bildirib. Rektor K.Abdulla qonağın bu addımını yüksək qiymətləndirib və ona təşəkkürünü bildirib. K.Abdulla L.M.Qranovskayaya universitetin simvolik hədiyyələrini və özünün ideya müəllifi olduğu yenicə çapdan çıxmış "Azərbaycan tərcümə ensiklopediyası" kitabını təqdim edib.

L.M.Qranovskaya rektor K.Abdullaya göstərdiyi diqqətə görə dərin minnətdarlığını bildirib. Bunun başlanğıc olduğunu diqqətə çatdıran L.M.Qranovskaya tələbələrə həmişə kitabın lazım olacağını söyləyib. ADU-ya hədiyyə etdiyi nəşrlərin çox qiymətli olduğunu söyləyən L.M.Qranovskaya bu kitabların universitetin kitabxanasının bir hissəsi olacağından məmnun olduğunu bildirib.



Görüşdə ADU-nun Tədris işləri üzrə prorektoru professor Əfqan Abdullayev, Rektorun Sosial məsələlər üzrə müşaviri Ələddin Əliyev, Beynəlxalq münasibətlər və idarəetmə fakültəsinin dekanı dosent İbrahim Kazımbəyli, Rusiyaşünaslıq elmi-tədqiqat laboratoriyasının müdiri professor Məmməd Əliyev, tələbələrin adından isə Beynəlxalq münasibətlər və idarəetmə fakültəsinin tələbəsi Şahin Sərdarlı L.M.Qranovskayanın hədiyyə etdiyi kitabların ADU kitabxanası üçün çox dəyərli sərvət olduğunu qeyd ediblər.

***Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfiri Anar Məhərrəmov Azərbaycan Dillər Universitetinin (ADU) rektoru akademik Kamal Abdullayevə məktub ünvanlayıb. Məktubda deyilir:***

**Hörmətli Kamal müəllim,**

Azərbaycan Respublikasının İspaniya Krallığındakı Səfirliyinin əməkdaşları və şəxsən öz adımdan Sizi dövlətçilik tariximizin ən şərəfli və parlaq səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı, ailə səadəti və Respublikamızın rifahı və tərəqqisi naminə həyata keçirdiyiniz fəaliyyətinizdə davamlı müvəffəqiyyətlər arzulayıram.

***Anar Məhərrəmov,***
***Azərbaycan Respublikasının***
***İspaniya Krallığındakı səfiri***

***Belarus Respublikasının Minsk Dövlət Linqvistik Universitetinin rektoru Baranova Natalya Petrovna Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, AMEA-nın həqiqi üzvü Kamal Abdullayevə məktub ünvanlayıb. Məktubda deyilir:***

**Hörmətli Kamal Mehdi oğlu! Hörmətli həmkarlar!**

Sizi parlaq Qələbə günü münasibəti ilə təbrik edirik. Sülh, tərəqqi və xoşbəxtlik arzulayırıq. Qələbə və uğur bütün təşəbbüslərinizdə və işlərinizdə sizinlə olsun!

Böyük Qələbənin atəş-fəşanlığı qəlbimizi sevinc və qürurla doldursun! Möhkəm can sağlığı, firavan günlər və əbədi əmin-amanlıq arzulayırıq!

Gəlin, dünyada sülh üçün bütün imkanları dəyərləndirək!

Sizə, həmçinin nümayəndə heyətimizi səmimi qəbul etdiyinizə görə təşəkkür edirik. Qarşılıqlı danışıqlarımızın gələcəkdə həyata keçəcəyinə ümid edirik.

***N.P.Baranova,***
***Minsk Dövlət Linqvistik Universitetinin rektoru***

# ADU-da "Heydər Əliyev və müasir Azərbaycan" adlı respublika tələbə-şagird elmi konfransı keçirilib




Mayın 18-də Azərbaycan Dillər Universitetinin (ADU) Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və müasir Azərbaycan" mövzusunda respublika tələbə-şagird elmi konfransı keçirilib.

ADU rəhbərliyi və konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin xatirəsini yad edərək universitetin foyesində yerləşən büstü önünə tər-çiçəklər qoyublar.

Konfransın açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni və "Gaudeamus" tələbə himni səsləndirilib.

Azərbaycan Dillər Universitetinin rektoru, konfransın təşkilat komitəsinin sədri, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, Kamal Abdulla qonaqları salamlayaraq onları bu xüsusi gündə universitetdə görməkdən şad olduğunu bildirib: "Xüsusi gün onunla bağlıdır ki, Azərbaycanın bir çox yerlərindən qonaqlarımız var. Məktəb şagirdləri öz direktorları, müəllimləri ilə birlikdə bizə qonaq gəliblər. Eyni zamanda, Bakının bir sıra məktəblərindən universitetimizin qonaqları var. Azərbaycanın bir çox universitetlərinin, akademiyalarının nümayəndələri də burada iştirak edirlər". Ulu öndərin xatirəsinə həsr olunmuş "Heydər Əliyev və müasir Azərbaycan" adlı tələbə-şagird konfransının çox möhtəşəm başlandığını söyləyən rektor bu yaxınlarda ADU-nun "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" adlı beynəlxalq konfrans keçirdiyini diqqətə çatdırıb: "Mənə elə gəlir ki, bu konfrans haqqında çoxunuzun məlumatı var. Bu konfrans unikal konfrans oldu və unikallığı da ondan ibarət idi ki, biz konfransı bu universitetdə başladıq, bir ay sonra yenə də bu universitetdə başa çatdırdıq. Amma bir ay ərzində bu konfransın bölmə iclasları 10 ölkədə, 15 universitetdə baş tutdu. Bu ölkələr Çin, Rusiya, Gürcüstan, Belarus, Ukrayna, Almaniya, Türkiyə, İtaliya, Serbiya idi. Bu ölkələrin bəzilərində 4-5 universitet öz iştirakı ilə bu konfransa xüsusi rəng qatdılar. Biz Ulu öndərin ideyalarını həmin ölkələrə, universitetlərə apardıq. Biz Ulu öndərin Azərbaycan və dünya üçün etdiklərini bir daha yada saldıq və bir daha əmin olduq ki, onun fəaliyyəti Azərbaycan üçün son dərəcə vacib, faydalı və həyati hadisə olmuşdur". Rektor K.Abdullayev bu gün tələbə və orta məktəb şagirdlərinin birlikdə keçirdiyi bu konfransın son dərəcə böyük simvolik mənası olduğunu bildirib: "Əvvəla bu mənanı açarsaq, ilk olaraq, konfransın elmi, ictimai əhəmiyyəti ondan ibarətdir ki, bizim bir şagirdimizi universitetimizin bir müəllimi, professoru, dosenti hazırlayır. İkinci, həmin şagird universitet həyatına daxil olur. Universiteti gəzir, universitetlə tanış olur, universitetdə özünə yeni dostlar tapır. Məqsəd bundan ibarətdir ki, universitetimizin tələbələri bizim qonaqlarımıza həyan olsunlar, onlarla birlikdə bizim universitet barədə təsəvvür yaratsınlar. Nəhayət, üçüncü məqsəd isə bundan ibarətdir ki, bu il universitetin həyatında ilk dəfə olaraq, ölkəmizin müxtəlif rayonlarında yerləşən qaçqın və məcburi köçkün məktəblərində pedaqoji təcrübədə olan tələbələrimizin bir qismi də bu gün həmin məktəblərdən gələn şagirdlərlə görüşmək imkanı əldə edirlər. Bu da, son dərəcə tərbiyəvi bir məqamdır". Konfransın siyasi əhəmiyyətə malik olduğunu bildirən rektor K.Abdulla Ümummilli lider Heydər Əliyevin ölkədə müharibənin dayandırılması üçün əlindən gələni etdiyini və çox şeyə nail olduğunu vurğulayıb. Ölkə Prezidenti İlham Əliyevin bu gün Dağlıq Qarabağ probleminin həlli üçün böyük fədakarlıqla çalışdığını söyləyən rektor bu məsələnin sülh yolu ilə həll olunacağına inamını ifadə edib.

Prezident İlham Əliyevin bütün dünyaya multikulturalizm ideologiyasının Azərbaycan modelinin uğurlu və effektiv şəkildə işlədiyini nümayiş etdirdiyini, bu ideologiyanın təntənəsini yaşatdığını vurğulayan rektor K.Abdulla ADU-nun da dünyanın müxtəlif dilləri və mədəniyyətlərini öyrədən təhsil ocağı kimi bu siyasi istiqamətin bir nöqtəsində yer tapdığını deyib: "ADU müxtəlif universitetlərdə, elmi məkanlarda Azərbaycan həqiqətlərini multikulturalizm, tolerantlıq ideyaları, müxtəlif ideoloji amillər vasitəsi ilə dünya ictimaiyyətinə çatdırır. İnanıram ki, bugünkü konfransımızın da ümumi ruhu, ahəngi Ulu öndərin və Prezidentimizin bu istiqamətdəki fəaliyyətini dərindən öyrənmək və gələcəkdə bu fəaliyyətin müxtəlif istiqamətlərini dünya universitetlərində, Azərbaycanın bölgələrində yaymaqdan ibarət olacaq".

Ağdam 1 nömrəli köçkün tam orta məktəbi, Şamaxı rayon Sabir qəsəbə tam orta məktəbi, Şamaxı rayon 2 nömrəli tam orta məktəb, Binəqədi rayon 298 nömrəli məktəb, 92 nömrəli məktəb, E.Ağayev adına 198 nömrəli məktəb, 314 nömrəli məktəb, V.Əzizov adına 30 nömrəli məktəb, Nərimanov rayonu 36 nömrəli tam orta məktəb, 264 nömrəli məktəb-liseyi, Bakı Xoreoqrafiya Akademiyasının tam orta məktəbi, Yasamal rayon 225 nömrəli tam orta məktəb, Nizami rayon 227 nömrəli tam orta məktəb, Z.Məmmədov adına 171 nömrəli tam orta məktəb, E.Tağızadə adına 164 nömrəli tam orta məktəb, 204 nömrəli tam orta məktəb, Hüseynov adına tam orta məktəb, Nəsimi rayonu 46 nömrəli tam orta məktəb, Nəsimi rayonu 42 nömrəli tam orta məktəb, 299 nömrəli tam orta məktəb, Suraxanı rayonu 275 nömrəli tam orta məktəb, Binəqədi rayonu 260 nömrəli məktəb-liseyi, Ağdam rayon 47 nömrəli köçkün tam orta məktəbi, Kəlbəcər rayonu 1 nömrəli tam orta məktəb, Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktor və şagirdlərini salamlayan rektor K.Abdulla onları universitetdə görməyi olduqca sevindirici və şərəfli hal kimi qiymətləndirib: "Biz gərək elə edək ki, onların iki günlük Bakı tətilləri və konfrans yadlarında əbədi qalsın". Cocuq Mərcanlı kənd tam orta məktəbinin adını çəkdikdə qəhərlənən rektor - "Əlbəttə ki, bizim Qarabağa dönüşümüzün başlanğıcında Cocuq Mərcanlı durur" - sözlərini ifadə edib.



K.Abdulla Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti - DTX Akademiyası, Gəncənin Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Universiteti, Bakı Xoreoqrafiya Kolleci, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Qərbi Kaspi Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Dövlət Universiteti, Əmək və Sosial Münasibətlər Akademiyası, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu, Gəncə Dövlət Universiteti və Moskva Dövlət Universitetinin Bakı filialının rektor və nümayəndələrini ADU-da salamlamaqdan böyük məmnuniyyət duyduğunu bildirib.

Konfransın həyata keçirilməsinin asan olmadığını söyləyən K.Abdulla bu işdə zəhmət sərf edən məktəb kollektivinə, universitet dekanlarına, Tələbə Elmi Cəmiyyətinə (TEC), tələbə və magistrantlara, o cümlədən ADU-nun müəllim heyətinə iki gün ərzində burada müxtəlif bölgələrdən gələn iştirakçı şagirdlərlə təmasda olduqlarına, onlara rəhbərlik etdiklərinə, elmi istiqamətlər göstərdiklərinə görə təşəkkürünü bildirib: "Bir şagirdin həyatına bir universitet professoru daxil olur, onun elmi yaradıcılığını gələcəkdə də işıqlandırmağa cəhd göstərir. İnanıram ki, bu istiqamətlər həmin şagirdlərin gələcək elmi həyatlarına da işıq salacaqdır".

Konfransın bölmə iclaslarında Azərbaycan dili, müasir Azərbaycan, tariximiz, mədəniyyətimiz ilə bağlı çox maraqlı məruzələrin olduğunu deyən rektor bu konfransın tərəfləri daha yeni layihələrə həvəsləndirəcəyinə ümid etdiyini vurğulayıb: "ADU ilə məktəblər arasında əlaqələrin yalnız pedaqoji təcrübə müddətində deyil, müxtəlif istiqamətlər üzrə də davam edəcəyinə ümid edirəm. Universitetimizin qapıları həmişə sizin üzünüzə açıq olacaq. Hamınızı bağrıma basıram, konfransın işinə uğurlar arzulayıram. Ümid edirəm ki, bu şagirdlərin hamısı gələcəkdə bizim universitetin layiqli tələbələri olacaq".

N.Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev dəvətə görə minnətdarlığını bildirib. Azərbaycan Dillər Universitetinin respublikada öz sözünü demiş, potensiallı universitet olduğunu deyən Z.Həziyev burada çıxış etməyin məsuliyyət tələb etdiyini dilə gətirib. ADU-da isti münasibətlə qarşılandıqlarını deyən Z.Həziyev təşkilatçılara və könüllülərə təşəkkürünü bildirib. 1993-cü ilin oktyabr ayında 12 yaşı olarkən ermənilərin torpaqlara soxulması ilə əlaqədar Cəbrayıl rayonunu tərk etdiyi anları xatırlayan Z.Həziyev şahidi olduğunu məqamlardan danışıb: "Şükürlər olsun ki, 24 il sonra 37 yaşımda öz torpağımıza qayıtdım. Bu gün Cocuq Mərcanlı çox gözəl günlərini yaşayır. Xaraba halına salınmış kəndin yerində gözoxşayan məktəb binası, yaşayış yerləri tikildi, şərait quruldu. Cənab Prezident özü kəndin açılışında məktəbimizin qonağı olub. 1993-cü ildə yaşanan ağır vəziyyətdə Ümummilli lider bir neçə il hakimiyyətə tez gəlmiş olsaydı, torpaqlarımız işğal olunmazdı. 1994-cü ilin uğurlu Horadiz əməliyyatında Füzuli rayonunun 22 yaşayış məntəqəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Lakin bir neçə ay erməni əsarətində qalan kənd viranə günə qalmışdı. Yaşayış orada mümkün deyildi, ermənilər yaxınlıqdakı yüksəkliklərin hamısına nəzarət edirdilər. Üstündən illər keçsə də, biz ordumuzun həmişə qələbəni əldə edəcəyi günü gözləyirdik, bu arzu ilə yaşayırdıq. 2016-cı ilin Aprel döyüşlərində biz çoxlu şəhidlər verdik. Lələtəpə yüksəkliyində gedən döyüşlər nəticəsində çoxlu şəhidlər verdik. Lakin ordumuz öz sözünü dedi. Ermənilər belə bir fikir yürüdürdülər ki, Lələtəpə istiqaməti 1994-cü ildə nə qədər cəhd olunsa da, alına bilməmişdi. Lakin 2016-cı ildə ermənilər layiqli cavablarını almışdılar". Konfransın yüksək səviyyədə təşkil olunduğunu deyən və konfransın işinə uğurlar arzulayan Z.Həziyev qəlbində sözlərinin çox olduğunu bildirib: "Ümummilli lider haqqında bir saat, iki gün, aylarla danışsaq, azdır. Yaxşı ki, həyatımızda Ümummilli lider kimi şəxs olub".

**Davamı səh. 4-də**



**Ağdam rayon 1 nömrəli köçkün tam orta məktəbinin direktoru Çimnaz Kərimova:**

"Biz çox tədbirlərdə iştirak etmişik. Bu tədbirin önəmi çox böyükdür. Ulu öndərimizin doğum gününə həsr olunmuş bu tədbirin önəmi ona görə böyükdür ki, bunu universitetdə təşkil ediblər. Bunu tələbə-şagird elmi cəmiyyətində qarşılıqlı sıx əlaqələrin başlanğıc forması kimi qəbul edirəm. Elm sahəsində gələcəyə xəyal kimi baxan şagirdlər birdən-birə ali təhsil müəssisəsinə gəlirlər və burada isə bu gerçəkliyi görürlər, hiss edirlər. Onu qeyd etmək istəyirəm ki, bununla artıq şagirdlərin ADU-ya marağı artıb. Dil öyrənmək indi çox vacibdir. 2017-2018-ci dərs ili "Ümumi təhsildə keyfiyyət ili" elan edilib. Bu onu göstərir ki, Azərbaycan təhsili inkişaf edir, sözünü beynəlxalq aləmdə deməyə qadirdir. Keçirilən olimpiyadalar bunu bir daha sübut edir. Xüsusilə akademik Kamal Abdullaya bu layihəni həyata keçirdiyi, məcburi köçkün məktəblərini diqqət mərkəzində saxladığı üçün, həmçinin Tələbə Elmi Cəmiyyətinin müdiri Lamiyə Muğalovaya, universitetin pedaqoji heyətinə çox təşəkkür edirəm. Şagirdlərə göstərilən bu diqqət hamının yaddaşında qalacaq hadisədir. Tələbələrin də məcburi köçkün məktəblərində təcrübə keçməsini böyük nailiyyət hesab edirəm. Bu layihənin davamlı olmasını arzulayıram".



**N.Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev:**

"Ölkəmizin potensiallı, yüksək səviyyəli universiteti olan Azərbaycan Dillər Universitetinin bölgə məktəbləri ilə əməkdaşlığını yüksək qiymətləndiririk. Bilirsiniz ki, bölgələrdə bəzən xarici dillər baxımdan zəiflik olur. Amma ADU-nun yüksək kadr potensialından yararlanmaq fikrindəyik. Mən kafedralarda, auditoriyalarda, kitabxanada oldum və çox bəyəndim. Bu universitetdə inkişaf etmiş texnologiyalardan istifadə, peşəkar kadrların mövcudluğu əməkdaşlığı çərçivəsində şagirdlərimizin inkişafında yardımçı ola bilər. Şagirdlərimiz də hazırlaşıb bu cür universitetə qəbul olunub təhsillərini davam etdirərlər".

# ADU-da “Heydər Əliyev və müasir Azərbaycan” adlı respublika tələbə-şagird elmi konfransı keçirilib



Əvvəli səh. 3-də

Konfransda Kəlbəcər rayonu 1 saylı orta məktəbinin direktoru Fərqanə Əhmədova dünyanın bir sıra dövlət başçılarının dilindən dəfələrlə “Azərbaycan xalqı xoşbəxtdir ki, ona Heydər Əliyev kimi müdir, siyasi xadim rəhbərlik edib” sözlərinin səsləndiyini qeyd edib. H.Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın əbədi müstəqilliyə, inkişafa, tərəqqiyə qədəm qoyduğunu söyləyən F.Əhmədova Ulu öndərin bütün həyatını doğma xalqına sərf edən, milli dövlətçiliyin əsasını qoyan dahi lider olduğunu bildirib. O, 1969-cu il iyulun 14-də əbədi olaraq Azərbaycan xalqının tarixinə həkk olunduğunu deyib: “Məhz həmin gün möhtərəm Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi gündür. Azərbaycan Respublikasının dayanıqlı inkişafı həmin gündən başlayır. 1993-cü il iyunun 15-də isə müstəqil Azərbaycanın Qurtuluş günüdür. Əgər cənab Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə Azərbaycana rəhbərlik etməyi öz üzərinə götürməsəydi, bu gün dünyanın siyasi xəritəsində Azərbaycan respublikası adlı dövlətin mövcudluğu mümkün olmayacaqdı. Həqiqətən, bir tərəfdən vətəndaş müharibəsi, digər tərəfdən siyasi hakimiyyət böhranının məngənəsində sıxılan Azərbaycana rəhbərlik məsuliyyətini yalnız Ulu öndər Heydər Əliyev öz üzərinə götürə bilərdi”. O, Ulu öndərin uğurlu siyasətinin bu gün gördüyü bütün təqdirəlayiq işlərlə xalqın rəğbətini qazanan, Azərbaycan milli maraqlarını qoruyan, ölkəmizin təhlükəsizliyinə nail olan alternativsiz lider cənab prezident İlham Əliyev tərəfindən davam etdirildiyini vurğulayıb: “Prezident İlham Əliyevin gərgin, işgüzar siyasi fəaliyyəti sayəsində ölkəmiz gün-gündən daha da inkişaf edir və dünya ölkələri sırasında öz layiqli yerini tutur”. Akademik K.Abdullanın rəhbərlik etdiyi Azərbaycan Dillər Universitetinin gələcəyin səriştəli müəllimlərinin formalaşamasında uğurlarının danılmaz olduğunu söyləyən F.Əhmədova bu gün yüksək nəticə göstərmiş tələbələrin burada təhsil aldığını və sabahın savadlı müəllimləri kimi yetişdiyini qeyd edib: “Həmin tələbələrin pedaqoji təcrübələrinin keçirməsini məcburi köçkün məktəblərində təşkil olunması məni Kəlbəcər rayonu 1 nömrəli tam orta məktəbin direktoru kimi sevindirir və biz müəllimlərdə tədris zamanı yaradıcı yanaşmağımızda ruh yüksəkliyi yaradır. Mən istərdim, ADU-nun məzunları müəllimlərin işə qəbul qaydalarına uyğun olaraq məcburi köçkün məktəblərində çalışsınlar”. F.Əhmədova müəllimlərin işğal altında olan torpaqların Prezident İlham Əliyevin rəhbərliyi ilə tezliklə azad olunacağına əmin olduqlarını bildirib.

ADU-nun tələbəsi, xəlifə rektor Nicat Aşurov, Nəsimi rayonu 164 nömrəli tam orta məktəbin 10B sinif şagirdi Lalə Ələsgərli akademik K.Abdullanın təşəbbüsü ilə keçirilən bu kimi yerli və beynəlxalq konfransların dünya və respublika səviyyəsində Ulu öndərin ideyalarının öyrənilməsində xüsusi rol oynadığını söyləyiblər. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü mötəbər işlərdən söz açıblar.

Təhsil fakültəsinin dekanı, professor Fikrət Cahangirov bugünkü konfransın bir neçə aspektə görə əhəmiyyətli olduğunu bildirib: “Mövzu baxımından əhəmiyyətli olan bu konfransı bundan öncə baş tutmuş beynəlxalq konfransın məntiqi davamı hesab etmək olar”. O, bir sıra alimlərin elm haqqında irəli sürdüyü fikirləri səsləndirib və konfransın mövzusu ilə əlaqələndirib. Şagirdlərin universitetə gəlməklə ADU-da gedən proseslər vasitəsi ilə elmi nailiyyətlərin şahidi olduqlarını söyləyib: “Biz professor-müəllim heyəti olaraq, gələcək tələbələrimizi bu gün universitetdə görürük. Elm artıq xəyallarımızı qabaqlayır. Bu mənada hesab edirəm ki, bu layihə çox əhəmiyyətli və vacibdir. Həm məktəb, həm universitet müqəddəs məbəddir. Bu məbədin sakinləri hörmətə layiq insanlardır”.

ADU-nun qonağı olan Türkiyənin Ankara Universitetinin Təhsil fakültəsinin dekanı professor xanım Qorxmaz universitet tələbələri və məktəb şagirdlərinin bir araya gələrək Ümummilli lider Heydər Əliyevin fəaliyyəti ilə bağlı müzakirələr aparmasını təqdirəlayiq hal hesab etdiyini bildirib. O, konfransın işinə uğurlar arzulayıb.

Nərimanov rayonu 36 saylı tam orta məktəbin direktoru Emilya Səfərəliyeva konfransın təşkilinin böyük əmək tələb etdiyini qeyd edib. Azərbaycan xalqı, gənc nəsil üçün ən böyük dəyərin Heydər Əliyevin əsasını qoyduğu vətəndaşlıq tərbiyəsi, mədənimənəvi irsin öyrədilməsi olduğunu söyləyən E.Səfərəliyeva bildirib ki, bu gün ictimai vəzifələrdən birinin bu irsi öyrədilməsi, onun tədqiq olunmasıdır. Konfrans iştirakçılarına uğurlar arzulayan E.Səfərəliyeva bu konfransın ənənəyə çevrilib davamlı olacağına inamını ifadə edib.

Tələbə Elmi Cəmiyyətinin sədri Lamiyə Muğalova ADU-nun tarixində ilk dəfə tələbə-şagird elmi konfransının keçirildiyini söyləyib. O, konfransın “Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi”, “Müasir Azərbaycan beynəlxalq münasibətlər sistemində”, “Azərbaycan tarixi və mədəniyyəti”, “Dil və ədəbiyyat”, “Pedaqoqika və psixologiya”, “Multikulturalizm və tolerantlıq ideologiyası” mövzusunda bölmə iclasları ilə davam edəcəyini və iclaslarda tələbə-müəllim heyəti ilə yanaşı, məktəb şagirdlərinin də məzunlarla çıxış edəcəklərini diqqətə çatdırıb.

Konfrans mayın 19-da başa çatacaq.

⬩❖⬩

Mayın 19-da Azərbaycan Dillər Universitetinin (ADU) Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev və müasir Azərbaycan” mövzusunda respublika tələbə-şagird elmi konfransının bağlanış mərasimi keçirilib.

Tədbirdə bölmə iclaslarının moderatorları yekun hesabat veriblər. Dosent Ədalət Abdiyeva dosent Sevdagül Əliyevanın moderatoru olduğu “Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi” bölməsinin I iclasında 31 nəfərin iştirak etdiyini, 40 məruzənin



dinlənildiyini, 26 sertifikat və 5 təşəkkürnamənin verildiyini, özünün moderatoru olduğu II iclasında isə 35 nəfərin iştirak etdiyini, 41 məruzənin dinlənildiyini, 32 sertifikat və 5 təşəkkürnamə verildiyini bildirib. Dosent Bəhman Əliyev “Azərbaycan tarixi və mədəniyyəti” bölmə iclasında 20 nəfərin iştirak etdiyini, 26 məruzənin dinlənildiyini, 9 sertifikat və 2 təşəkkürnamənin verildiyini, dosent Vidadi Bəşirov “Pedaqoqika və psixologiya” bölmə iclasında 16 nəfərin iştirak etdiyini, 18 məruzənin dinlənildiyini, 16 sertifikatın verildiyini, professor Arif Hüseynov “Dil və ədəbiyyat” adlı bölmənin 9 iclasında 195 məruzənin dinlənildiyini, 159 sertifikatın, 36 təşəkkürnamənin verildiyini dosent İrina Kunina “Multikulturalizm və tolerantlıq ideologiyası” bölmə iclasında 12 nəfərin iştirak etdiyini, 16 məruzənin dinlənildiyini, 7 sertifikat və 5 təşəkkürnamənin verildiyini bildiriblər.

Moderatorlar bölmə iclaslarında ADU tələbələri və məktəb şagirdləri ilə yanaşı, ölkənin digər universitetlərinin tələbələrinin də iştirak etdiyini qeyd ediblər.

Tədbirdə konfransın iki günlük işini əks etdirən videoçarx nümayiş olunub.

Azərbaycan Dillər Universitetinin rektoru, konfransın təşkilat komitəsinin sədri, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, Kamal Abdulla qısa zaman çərçivəsində böyük işlər görüldüyünü qeyd edib: “Həm təşkilatçılar, həm iştirakçıların həddən artıq böyük zəhmət çəkdiklərinin şahidi oldum. Konfransın uğurla başa çatmasında məktəb direktorları, müəllimlərinin, həmçinin bizim universitetin pedaqoji heyətinin böyük rolu oldu.”. Azərbaycanın bölgələrindən gəlmiş qonaqları təbrik edən rektor konfransın onların yaddaşında əbədi qalacaq hadisə olduğuna əminliyini ifadə edib: “Ümid edirəm ki, universitetlə tanışlıq şagirdlərin təsəvvürlərini genişləndirib və bu iki gün onların yaddaşında xoş bir xatirə kimi qalacaq”. Rektorluq fəaliyyətinə başladığı ilk illəri xatırlayan akademik K.Abdulla o zamanlar Ulu öndər Heydər Əliyevin söylədiyi sözləri diqqətə çatdırıb: “Heç yadımdan çıxmaz. 2001-ci ildə rektor vəzifəsinə yeni təyin olunmuşdum. Ulu öndərin yeni qəbul olunmuş tələbələrlə görüşü keçirilirdi. Təbii ki, rektorlar da o görüşdə iştirak edirdi. Ulu öndər üzünü rektorlara tutub dedi: “Bu uşaqlar mənim sizə əmanətimdir”. Bu sözlər indiyə kimi mənim yadımdan çıxmır ki, bizim gənclərimiz, tələbələrimiz bizə əmanət olaraq verilib. Bizim şagirdlərimiz bizim mətkəblərimizə, universitetlərimizə əmanətdir. Bu əmanəti qorumaq bizim müqəddəs borcumuzdur”. Rektor tələbə və şagirdlərin birlikdə konfrans keçirməsinin mənasının simvolik olmaqla yanaşı, maarifçilik perspektivlərinə yol açdığını da dilə gətirib: “Əlbəttə ki, bu konfransın ən böyük uğuru belə birliyin əldə olunması idi”. K.Abdulla konfransın davamında çatışmayan cəhətlərin gələcəkdə peşəkarlaşaraq aradan götürüləcəyinə əminliyini ifadə edib: “Bölmə rəhbərlərinin hesabatlarından da görünür ki, həqiqətən çox ciddi proses baş verib. Şagirdlər də, tələbələr də düşüncələrini ortaya qoyduqları tezislərini, məruzələrini müdafiə edə biliblər, yaxşı müzakirələr olub”.

Sonra rektor Kamal Abdulla universitet adından məcburi köçkün məktəblərinin hər birinə kompyuter, Tədris işləri üzrə prorektor professor Əfqan Abdullayev isə məktəb şagirdlərinə universitetin xüsusi hədiyyələrini təqdim ediblər.

Daha sonra Cocuq Mərcanlı kənd tam orta məktəbi, Ağdam 1 nömrəli tam orta məktəbi, Ağdam rayon 47 nömrəli tam orta məktəbi, Kəlbəcər rayonu 1 nömrəli tam orta məktəbinin direktor və şagirdləri ADU-nun rektoru akademik Kamal Abdulla başda olmaqla, təşkilatçılara göstərdikləri diqqət, qayğı, xoş münasibətə və yaratdıqları şəraitə görə təşəkkürlərini bildiriblər.

Sonda Ağdam 1 nömrəli köçkün tam orta məktəbinin şagirdləri “Azərbaycan bayrağı” şeirini söyləyib və səhnəyə Azərbaycan bayrağı gətirilib.



**Binəqədi rayonu 299 nömrəli məktəb-liseyin şagirdi Məryəm Mirili:**

“Birinci dəfədir ki, Azərbaycan Dillər Universitetində oluram. Bura hər zaman mənə maraqlı və yüksək səviyyəli yer təəssüratı bağışlayırdı. Buranı gördükdən sonra gələcəkdə seçimimə təsir edəcəyini düşünürəm”.



**N.Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin şagirdi Samirə Orucova:**

“Universitetin binasında yerləşən mərkəzlər, kitabxanalar və digər yerlərlə tanış olduq. Çox xoşuma gəldi. Əsasən də kitabxanadakı kitablar daha çox diqqətimi çəkdi. Gələcəkdə bu universitetin tələbəsi olmağı çox istəyərəm. “Heydər Əliyev və azərbaycançılıq” mövzusu ilə çıxış edəcəm. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə bu mövzuya toxundum. Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində göstərdiyi xidmətlərdən söz açacağam”.



**Ağdam rayon 1 nömrəli köçkün tam orta məktəbinin XI sinif şagirdi Sənan Əhmədov:**

“Azərbaycan Dillər Universitetinin tələbələri bizim məktəbə gələndə biz çox sevinmişdik. Onlar məktəbdən gedəndə aşağı sinifdən başlayaraq yuxarı sinif şagirdlərinə qədər hər kəsdə kədər hissinin duyulması sevindirici haldır. Çünki onları çox sevmişdik. Şagirdlər hələ də, onlar üçün darıxırlar. Bizə Azərbaycan Dillər Universitetinə gedəcəyimizi deyəndə sevincimizin həddi-hüdudu yox idi. Bu, yağışdan öncə göy qurşağını görmək kimi çox sevindirici xəbər idi. Elə bil ki, gecəni yaşamamış artıq gündüzü açmışdıq. Bu sintez isə çox maraqlıdır. Mənim fikrimcə, şagirdlər və tələbələr birlikdə olduğu zaman şagirdlər öz gələcəklərini görür, tələbələr isə öz keçmişlərini xatırlayırlar. Azərbaycanda bu şəraitin yaradıldığı üçün prezidentimiz İlham Əliyevə, layihənin həyata keçirilməsi üçün isə akademik Kamal Abdulla başda olmaqla, təşkilatçılıqda əməyi keçən hər kəsə dərin təşəkkürümü bildirirəm”.

# ADU-nun möhtəşəm layihəsi

## İLK DƏFƏ OLARAQ TƏLƏBƏLƏR MƏCBURİ KÖÇKÜN MƏKTƏBLƏRİNDƏ TƏCRÜBƏ KEÇİBLƏR




Əvvəli səh.1-də

Rektor K.Abdulla bildirib ki, şagirdlərlə bu yaxınlarda nəşr olunan "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" adlı kitab, azərbaycançılıq ideologiyasının təbliği və s. məsələlərlə bağlı müzakirələr aparılması da zəruridir. Dərsdənkənar fəaliyyətin son dərəcə vacib olduğunu diqqətə çatdıran K.Abdulla tələbələrə universitetdə olan atmosferi məcburi köçkün məktəblərində də yaşatmaq və ADU haqqında təəssürat yaratmaq istiqamətində işlər görülməsini, eləcə də, məktəblərin daxili nizam-intizam qaydalarına riayət etməyi tövsiyə edib.

ADU-nun Təcrübə, professional inkişaf və karyera şöbəsinin müdiri, universitet üzrə pedaqoji təcrübənin rəhbəri Məmməd İsmayılov təcrübəni tələbələrin ilk əmək fəaliyyəti kimi xarakterizə edib və buna görə də onlara təbriklərini ünvanlayıb. O, bildirib ki, 2018-ci ilin fevral ayının 16-dan başlayan pedaqoji təcrübə əyani şöbədə 14 həftə, qiyabi şöbədə isə 5 həftə davam edəcək. Pedaqoji təcrübəyə yollanan tələbələr Bakının 64 məktəb-liseyində və Binəqədi rayonunda yerləşən Zəngilan məcburi köçkün məktəbində, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Gəncə, Bərdə, Mingəçevir şəhərlərində yerləşən məcburi köçkün məktəblərində təcrübə keçəcəklər. M.İsmayılov əlavə edib ki, istehsalat təcrübəsinə cəlb edilən tələbələr isə müxtəlif təşkilatlarda 14 həftə müddətində təcrübə keçəcəklər.

M.İsmayılov daha sonra pedaqoji və istehsalat təcrübəsinə tətbiq edilən yeniliklərdən danışıb, qiymətləndirmə prosesi barədə məlumat verib.

Görüş iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

Qeyd edək ki, ADU-nun qaçqın və məcburi köçkünlərə dövlət qayğısına öz töhfəsini vermək üçün könüllü şəkildə həyata keçirdiyi bu layihə genişmiqyaslı xarakter daşıyır. Belə ki, universitetlə orta məktəb əlaqələri təkcə təcrübə müddətində deyil, sonra da davam edəcək və sistemli xarakter daşıyacaq. Daha sonra təcrübənin miqyasının genişləndirilərək kəndləri əhatə etməsi, universitetin orta məktəblərin xarici dil müəllimləri ilə əlaqələrinin yaradılması nəzərdə tutulur.

❖

Azərbaycan Dillər Universitetində (ADU) 2017-2018-ci tədris ilinin pedaqoji və istehsalat təcrübələrinin yekun konfransı keçirilib.

Konfransda Əlavə təhsil və təcrübə fakültəsinin dekanı Məmməd İsmayılov təcrübənin yekunlarına dair hesabatla çıxış edib. O, ADU tələbələrinin Bakı şəhərinin 64 məktəbi, Binəqədi rayonunda yerləşən məcburi köçkün 1 saylı Zəngilan məktəbi, ümumilikdə 8 bölgə məktəbi olmaqla, 5 məcburi köçkün məktəbi və 3 kənd məktəbi, Gəncədə 1 saylı Kəlbəcər məktəbi, Bərdədə 1 saylı Ağdam məktəbi, Mingəçevirdə 47 saylı Ağdam məktəbi, Ağcabədidə Xocavənd rayonu 1 saylı Xocavənd kənd məktəbi, Qəbələdə Nic qəsəbəsi 3 saylı məktəb və Şamaxıda Qızmeydan kənd məktəbində pedaqoji təcrübə keçdiklərini bildirib. M.İsmayılov tələbələrin, həmçinin Bakıdakı 40 təşkilat, şirkət, dövlət qurumları və İsmayıllı rayonu İcra Hakimiyyətində istehsalat təcrübəsində olduqlarını qeyd edib. O, təcrübəçilərin təcrübə müddətində göstərdikləri fəaliyyət, Xocalı soyqırımına həsr olunmuş, universitetin tanıdılması istiqamətində keçirilən tədbirlər, Azərbaycan Xalq Cümhuriyyəti və azərbaycançılıq mövzularında dəyirmi masalar, "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabının təqdimatının keçirilməsi haqqında danışıb. M.İsmayılov gələcəkdə təcrübə prosesinin təkmilləşdirilməsi üçün qiymətləndirmə sorğusunun keçirildiyini söyləyərək bəzi təklifləri iştirakçıların diqqətinə çatdırıb. M.İsmayılov universitetin ünvanına göndərilmiş təşəkkür məktublarını oxuyub.



Təcrübə müddətində məcburi köçkün bölgə məktəblərində gedən prosesi özündə əks etdirən videoçarx nümayiş olunub.

ADU-nun rektoru, AMEA-nın həqiqi üzvü, Kamal Abdulla ekranda nümayiş olunan görüntülərə baxarkən qəhərləndiyini söyləyib: "İnsanı kövrəldən, insanı bu günə və gələcəyə inandıran səhnələrlə üzləşdik. Bu, çox vacib və faydalıdır. Eyni dərəcədə çox şərəfli işin öhdəsindən gələn müəllimlərimizə, tələbələrimizə eşq olsun! Bu prosesdə ən vacib şərt səmimiyyətdir. Bizim tələbələr özlərindən xəbərsiz bir-biri, müəllimləri ilə, məktəbdən kənar münasibətlərini qururdu. Sinif otağındakı balaca uşaqların gözündəki işığı, marağı gördükdə insan qəhərlənməyə bilmir. Tələbələrin məktəbdən uzaqlaşmamaq arzusunu çox gözəl başa düşürəm". O, bu layihənin yalnız pedaqoji təcrübə deyil, həmçinin hamı üçün həyat təcrübəsi olduğunu söyləyib: "Biz burada hadisələrə nəzarət edirdik, gedişatı izləyirdik və onlara müəyyən düzəlişlər verməyə çalışırdıq. Bizim üçün də həyat dərsi idi, universitet üçün də bütövlükdə imtahan idi. O məktəblərə gedən və getməyən müəllimlər üçün də imtahan oldu. Sevinirəm ki, biz hamımız bu imtahandan şərəflə çıxa bildik. Universitet ən vacib şərtlərdən birini özü üçün kəşf etdi. Tələbəsi, müəllimi, kafedra müdiri, dekanı və rektorundan asılı olmadan bir yumruq kimi birləşmək şansını əldə etdi, inanıram ki, bu şansı bir daha əldən buraxmayacaq". Rektor məhz ADU-nun tələbələrinin bu məktəblərə getməsinin son dərəcə vacib və gələcək perspektivlərə istiqamətlənmiş amil olduğunu deyib: "Ona görə ki, qaçqın və məcburi köçkün məktəblərinin şagirdləri böyüdükdən sonra ən yüksək səviyyədə, ən yüksək tribunalardan öz vətənlərini, öz kəndlərini, obalarını, evlərinin başına gələn müsibətləri danışmaq, dünyaya yaymaq məcburiyyətində qalacaqlar. Onların xarici dil vərdişlərini indidən doğru, düzgün müəyyənləşdirmək, onların gələcək fəaliyyəti üçün son dərəcə vacib nöqtədir. Ona görə də, məhz bizim universitetin xarici dil müəllimlərinin bu bölgələrdə iştirakı çox vacibdir". K.Abdulla bu məktəblərlə əlaqələrin qurulmasının vacibliyindən danışıb: "Xınalıq, Nic kəndinin uşaqları ilə görüşlər də, Azərbaycanın bütövlüyü naminə bizim verdiyimiz mücadilədə Ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin bu gün qəti və inamlı addımlarla irəliləməsində o kəndlər və mətkəblərlə əlaqələrin qurulması və gələcəkdə davam etdirilməsi son dərəcə vacibdir. Mən bizim həmin bölgələrdə çalışan tələbələrimizə bir daha təşəkkür etmək istəyirəm ki, siz öz çalışqanlığınızla, zəhmətinizlə, qeyrətinizlə bu münasibətlərin dərinləşməsinə xidmət etdiniz". Ölkənin mərkəzi və ucqarı arasında fərqin olmamasının özünə hörmət edən ölkə və cəmiyyətin ən böyük missiyası olduğunu deyən rektor Kamal Abdulla bu fərqin aradan götürülməsi istiqamətində görülən hər bir işin vətəndaş üçün şərəfli olduğunu bildirib: "Əgər biz bu gün ölkənin mərkəzindən ucqarına gedib orada yaşayanlara mərkəzdə yaşayanlarla eyni layihədə iştirak etmək şansı veririksə, onlara mərkəz və ucqar münasibətlərinin həlimliyini, doğmalığını bir daha nümayiş etdiririksə, bu, faktiki olaraq, bizim vətəndaş kimi ancaq qələbəmizdir". O, ADU tələbələrinin böyük məktəbdən keçdiklərini söyləyib: "Universitetdə dörd il ərzində aldığınız biliklərlə yanaşı, bir ay ərzində məktəblərdə aldığınız həyat biliyi, insani biliklər, psixoloji, pedaqoji vərdişlər qazandınız. Bunlar sizin üçün son dərəcə vacib və əhəmiyyətli olacaqdır. Siz bu gün fəxr edə bilərsiniz ki, özünüz öz qarşınızda ölkəmizin gənc vətəndaşı kimi qoyduğunuz tələbi, məsuliyyəti hiss etdiniz və bu şərəfli işin öhdəsindən gəldiniz. Siz fəxr edə bilərsiniz ki, ailənizin ümidini doğrultdunuz və onlar da bu gün şərəflə, fəxrlə hər yerdə deyə bilərlər ki, mənim övladım Azərbaycanın ən ucqar kəndinin müəllimi olmuşdur. Bu, sizin bioqrafiyanıza ömürlük yazıldı. Siz həmin məktəblərin ömürlük müəllimlər siyahısına düşdünüz. Siz universitet qarşısında fəxrlə durub deyə bilərsiniz ki, biz borcumuzu yerinə yetirdik. Siz, nəhayət xalqınız qarşısında vətəndaş kimi yerinə yetirməli olduğunuz borcunuzun bir hissəsini artıq yerinə yetirmiş sayıla bilərsiniz". Bu prosesin təşkilinin asan başa gəlmədiyini deyən rektor birlikdə bütün çətinlikləri dəf etməyin mümkün olduğunu söyləyib. Kamal Abdulla təcrübə prosesində iştirak edən müəllimlərə təşəkkür edib: "Mən bizim müəllimlərimizə, kafedra müdirlərimizə təşəkkür etmək istəyirəm. Təkcə tələbələrlə birlikdə rayonlara gedən müəllimlərə deyil, həmçinin onların ziyarətinə gedən və əməyi keçən bütün əməkdaşlara təşəkkürümü bildirmək istəyirəm. Konfutsi İnstitutu da bu prosesə qoşuldu və sizə dəstək oldu. Bildiyimə görə, tələbələr məktəblərdə Çinə aid viktorinalar keçirib və İnstitutun təşəbbüsü ilə şagirdlər mükafatlandırılıb. Bu da çox vacib məsələdir. Sizin onlara verdiyiniz kompyuterlər, mükafatlar sizi şagirdlərin yaddaşında həmişə saxlayacaq". Bu təcrübənin yalnız pedaqoji deyil. həmçinin siyasi, ictimai borcun dərk edilməsi təcrübəsi olduğunu deyən rektor bu təcrübədən ADU heyətinin üzü ağ, başı uca çıxdığını qeyd edib. Rektor bu ənənəni, təcrübə modelini universitet üçün qoruyub saxlanılmasına çalışılacağını bildirib: "Bu gün siz bizimləsiniz, bəziləriniz artıq müstəqil həyata atılırsınız, bəziləriniz universitetdə fəaliyyətinizi davam etdirəcəksiniz. Bizi də gələcəkdə kimlərsə əvəz edəcək. Amma mən arzu edərdim ki, bu layihə, bu dünyagörüşü, bu məsələlərə baxış bucağı ADU-nun həyatına əbədi daxil olsun. Çünki mən sizin gözünüzdəki işığı görəndə, üzünüzdəki bu sevinci hiss edəndə bu fantastik fikrə düşməyimizin çox yaxşı hal olduğunu düşünürəm. Biz bu işi axıra çatdırdıq. Bir daha sizə eşq olsun!"





Daha sonra təcrübədə iştirak etmiş müəllimlər və təcrübəçi tələbələr təşkil etdikləri tədbirlər, dərslər haqqında məlumat veriblər, konfransda iştirak edən məktəb şagirdləri təəssüratlarını bölüşüb, həmçinin çıxışçılar layihənin həyata keçirilməsində yaratdığı şəraitə görə universitet rəhbərliyinə təşəkkür ediblər.

# ADU heyəti Xınalıq kənd məktəbinə səfər edib

## MƏSMƏXANIM QAZIYEVA: "BURADA HƏM MÜƏLLİM VƏ ŞAGİRD, BACI VƏ QARDAŞ, ANA VƏ BALA MÜNASİBƏTİ HİSS OLUNURDU"



*Azərbaycan Dillər Universitetinin (ADU) tələbələrinin ucqar regionlarda keçdiyi pedoqoji təcrübənin yoxlanılması, həmin regionlarda məktəblərə maddi-texniki bazanın genişləndirilməsi ilə bağlı yardım edilməsi və həmin məktəblərdə tədbirlərin keçirilməsi məqsədi ilə ADU-nun bir qrup müəllim heyəti Quba rayonunun Xınalıq kənd məktəbinə yola düşüb. Linqvokulturologiya kafedrasının müdiri professor Məsməxanım Qazıyeva, kafedranın dosentləri Gülnarə Məlikova, Tofiq Quliyev, baş müəllimləri Elnarə Həsənquluyeva, Səidə Orucova, Fəlsəfə və ictimai elmlər kafedrasının müdiri dosent Ədalət Abdıyeva, Regionşünaslıq kafedrasının müdiri dosent Sevdagül Əliyevanın iştirakı ilə universitet adından məktəbə kompyuter, proyektor, hər 3 kafedranın müəllimləri tərəfindən toplanmış 40-dan artıq kitab, şagirdlərə universitetin loqosu olan papaq, köynək, qələm və qeyd dəftərləri, çantalar hədiyyə edilib.*

*Nümayəndə heyəti məktəbdə müəllim və şagirdlərlə görüşlər və tədbirlər keçirib.*

*Professor M.Qazıyeva məktəb şagirdlərinə universitetin təşkilatçılığı ilə keçirilən tədbirlər, konfranslar haqqında məlumat verib. O, Ümumilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Heydər Əliyev multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda beynəlxalq konfrans haqqında danışıb.*

*Dosent Ə.Abdıyeva "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabı təqdim edib, kitabın məziyyətləri barədə məlumat verib.*

*Dosent S.Əliyeva ADU-nun rektoru akademik Kamal Abdullanın təşəbbüsü ilə keçirilən "Heydər Əliyev və müasir Azərbaycan" adlı respublika tələbə-şagird elmi konfransından danışıb. S.Əliyevanın müxtəlif məktəb şagirdlərinin həmin konfransda iştirak etdiyini bildirməsi Xınalıq məktəbinin şagirdlərini də həvəsləndirib.*

*Linqvokulturologiya kafedrasının müəllimləri Tofiq Quliyev, Gülnarə Məlikova, Elnarə Həsənquluyeva və Səidə Orucova universitetdə yerləşən Konfutsi İnstitutu haqqında məlumat veriblər və viktorinalar keçiriblər. Viktorinada iştirak edən şagirdlərə məktəb çantaları hədiyyə edilib.*

*Məktəbin direktoru Yunis müəllim məktəbdə təcrübəçi tələbələrin fəaliyyətlərindən razılığını bildirib. O, tələbələrin müxtəlif siniflərdə fənlərin tədrisi prosesində, həmçinin şagirdlərin təlim-tərbiyə və asudə vaxtlarının səmərəli təşkilində fəal iştirak etdiklərini qeyd edib.*

*Sizə Linqvokulturologiya kafedrasının müdiri professor Məsməxanım Qazıyevanın səfərlə bağlı təəssüratlarını təqdim edirik:*

**- Səfər necə keçdi?**

- Bu layihə ilə bağlı fikir rektorumuz Kamal Abdullayev tərəfindən verildi. Bir şeyi əvvəlcədən qeyd etmək istərdim ki, "ilk dəfə" sözü bizim universitetin adına yazıldı. Nə üçün? İlk dəfə olaraq, bizim tələbələrimiz məcburi köçkün məktəblərində təcrübə keçdilər. İlk dəfə olaraq, bizim universitetin təşəbbüsü ilə 15 ölkəni əhatə edən "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda beynəlxalq konfrans, həmçinin "Heydər Əliyev və müasir Azərbaycan" adlı respublika tələbə-şagird elmi konfransı keçirildi. Bizim üçün də məcburi köçkünlərin yaşadıqları, təhsil aldıqları yerlərə getmək bir ilk idi. Bundan əvvəlki səfərimiz bizim kafedranın əməkdaşları Filologiya və jurnalistika fakültəsi nəzdində İngilis dilinin leksikologiyası və üslubiyyatı kafedrasının əməkdaşları ilə birlikdə Ağdam rayonu 1 saylı məcburi köçkün tam orta məktəbinə olmuşdu. Oradan biz çox gözəl təəssüratla qayıtdıq. Şəhərcikdə çox gözəl şəkildə evlər tikilmişdi, mənzillər səliqəli idi. Məktəbin müasir görünüşü, səliqəsi, texnoloji vasitələrdən istifadə, siniflərdə kompyuterlərin olması təqdirəlayiq haldır. Biz viktorina, tələbələrlə görüş keçirdik, siniflərdə təcrübəçi tələbələrimizin dərslərində iştirak etdik. Məktəb kollektivi tələbələrimizdən çox razı idilər. İlk olaraq, bir qadın kimi onların tərbiyəsindən çox razıyam. Bu da, bizim universitetin təkcə tədrisə yox, həmdə təlim-tərbiyəyə verdiyi önəmlə bağlıdır. Bu dəfə yalnız bizim kafedranın əməkdaşları deyil, həmçinin Fəlsəfə və ictimai elmlər kafedrasının müdiri dosent Ədalət Abdiyeva, Regionşünaslıq kafedrasının müdiri dosent Sevdagül Əliyeva və kafedraların əməkdaşları bizə qoşuldular və biz birlikdə Qubanın Xınalıq kəndinə getdik. Mən orada bir neçə dəfə olmuşam. Hər dəfə biz ora gedəndə müxtəlif ölkələrdən gələn turistlərə rast gəlirik. Bu da, oranın tarixi yer olduğuna dəlalət edir. Bir vətəndaş, müəllim, ana kimi istəyirəm ki, bizim uşaqlarımız gələcəkdə bizim davamçılarımız olsun. Mən orada təhsil alan şagirdlərin gözlərində işıq, təhsilə həvəs gördüm. Biz təşkil etdiyimiz otaqda tədbir keçirdik. Şagirdləri sertifikatlarla təltif etdik, universitet adından kompyuter və proyektor hədiyyə etdik, universitetin müəllimlərinin müəllifi olduğu ingilis dilində dərs vəsaitləri, dərsliklər təqdim etdik. Bu, onlara böyük köməkdir. Mən istərdim ki, hədiyyələrdən şagirdlər bəhrələnsinlər. Ucqar kənd olmasına baxmayaraq, onlar üçün daha yaxşı şərait yaratmaq, vəsaitlərlə təchiz etmək, müəllimlərin dərslərində iştirak etmək və daha çox diqqət yetirmək lazımdır.

**- Təcrübəçi tələbələrimiz haqqında nə deyə bilərsiniz?**

- Təcrübəçi qızlarımız çox həvəslə işləyirdilər. Lap körpəsindən tutmuş yuxarı sinif uşaqlarına kimi şagirdlər bizim qızlardan əl çəkmirdilər. Çünki tələbələr onlara isti münasibət göstərirdilər. Burada həm müəllim və şagird, bacı və qardaş, ana və bala münasibəti hiss olunurdu. Təbii ki, onların verdiyi təhsil də onları qane edirdi. Biz həmin təcrübəçi müəllimlərin dərslərində iştirak etdik. Mən onların tədris metodunu çox bəyəndim. Öyrətməyə can atırdılar. Hətta gələndə də həm uşaqlar, həm bizim təcrübəçi qızlarımız ağlayırdılar. Çoxlu sayda məktublar var idi. Mən qürurla deyirəm ki, bizim tələbələr orada məcburi deyil, könüllü işləyirlər. İstəyirlər ki, biz də onlara diqqət yetirək. Bu, onlar üçün mənəvi yardımdır. Digər cəhətdən, onların bizim məsləhətlərimizə də ehtiyacları var. Biz özümüz orada ustad dərsləri keçirdik. Onlar bundan qidalanırlar. Bu fikir ortaya çıxanda bəzi tələbələrimiz tərəddüd etdi. Könüllü qruplar yaratdıq. Könüllü qruplar gəlib məlumat verdikdən sonra bizim tələbələrdə böyük həvəs yarandı. Bu kəndlərdə yaşayan uşaqlar bizim gələcəyimizdir. Pedaqoji və istehsalat təcrübəsinin yekun konfransında tələbələrimizin danışığından, verdiyi müsahibələrdən hiss edirəm ki, gələn il özləri kəndlərə göndərməyə bizi məcbur edəcəklər. Onlar üçün əlverişli şərait yaradılır.



**- Məktəb şagirdləri ilə bağlı hansı təəssüratlarınız var?**

- Bu kəndin uşaqları yaxşı təhsil alsa, öz kəndləri haqqında çox məlumat verə bilərlər. Çünki bu kəndin özünün dili var, mədəniyyəti var. Buradakı multikulturallıq nöqteyi-nəzərdən məktəbdə "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabının təqdimatını keçirdik. Azərbaycan multikultural ölkədir. Xınalıq kəndində tədris alan uşaqların arasında 7-8 etnik qrup var. Mən istərdim, belə kəndlərə qayğı daha çox olsun. Həm məişətlərinə, yaşayışlarına, həm də tədrislərinə, təhsillərinə daha çox qayğı göstərilsin. Bu baxımdan bizim universitetin həyata keçirdiyi bu layihəni yüksək qiymətləndirirəm. Məqsədimiz onlara yardım etməkdir. Onlar bizim gələcəyimizdir. Mən əminəm ki, onların tədrisinə, təhsilinə qayğı çox olsa, onlar gələcəyin görkəmli alimləri ola bilərlər.

# "Azərbaycanın mültikulturalizm modeli dünya modelləri ilə müqayisədə"



Mayın 17-də Azərbaycan Dillər Universitetinin (ADU) Xarici dillərin tədrisi metodikası kafedrasının baş müəllimi Sevinc Məmmədova və mən- Elnurə Əliyevanın təşkilatçılığı ilə Bakı şəhəri Xətai rayonu 27 saylı məktəbdə "Azərbaycanın mültikulturalizm modeli dünya modelləri ilə müqayisədə" ("Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Multikulturalizmin Azərbaycan modeli haqqında" kitabının əsasında) adlı tədbir keçirildi. ADU-nun Tərbiyə işləri üzrə prorektoru vəzifəsini icra edən Sərraf Hüseynovun da iştirak etdiyi tədbirdə Multikulturalizmin Azərbaycan modeli haqqında məlumat verdim. "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Multikulturalizmin Azərbaycan modeli haqqında" kitabında qeyd olunduğu kimi, müasir dövrdə Azərbaycan Respublikası dünyanın əsas multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun əsas göstəricisi ölkəmizdəki etnik, dini və mədəni müxtəlifliklərin düzgün tənzimlənməsidir. Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olub. Azərbaycanın yerləşdiyi ərazi müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu bir yerdir. Danılmaz faktdır ki, Azərbaycan xalqının tarix boyu digər mədəniyyətlərə dözümlü münasibəti onun təbiətindən, insanpərvərliyindən və xoş məramlığından irəli gəlir. Azərbaycan qədim zamanlardan müxtəlif dinlərin, dini cərəyanların yayıldığı, qovuşduğu, qarşılıqlı anlaşma şəraitində yaşadığı və əməkdaşlıq etdiyi bir məkandır. Mədəni, etnik, dini və s. müxtəlifliklər düzgün tənzimlənmədikdə cəmiyyətin inkişafında natarazlıq baş verir. Bu müxtəlifliklərin tənzimlənməsinin düzgün modellərindən biri multikulturalizmdir. Multikulturalizm fərqli mədəniyyətlərin yanaşı və ya birgə yaşayış tərzidir və azsaylı xalqların öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verməklə yanaşı, onların yaşadıqları cəmiyyətin bütün sahələrində fəal iştirak etmələri üçün hər cür şəraitin yaradılmasıdır. Multikulturalizm tərcümədə çoxmədəniyyətlilik deməkdir. Çoxmədəniyyətlilik dedikdə isə, ilk növbədə etnik, irqi, dini və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən dəyərlər nəzərdə tutulur. Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi, o cümlədən bu ənənələrin inkişafını özündə ehtiva edən azərbaycançılıq ideologiyasında axtarmaq lazımdır. Beləliklə, multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin və dövlət siyasətinin ayrılmaz tərkib hissəsi, Azərbaycan xalqının isə həyat tərzidir. Bu çərçivədə keçirilən tədbirlər və görülən işlər isə ölkəmizdə multikultural təhlükəsizliyin intellektual göstəricilərinin artıq formalaşdığını təsdiqləyir.

S.Hüseynov təqdim olunan kitabın Azərbaycanın həyatında əhəmiyyəti haqqında məlumat verdi. Multikulturalizmin mahiyyəti barədə danışan S.Hüseynov keçirilən tədbirin şagird və tələbələrin milli-mənəvi tərbiyəsinə təsirindən danışdı.

Tədbirə qatılan Təhsil fakültəsinin IV kurs tələbələri Nübar Rzazadə Azərbaycan multikulturalizmi haqqında, Rəfiqə Əliyeva Ulu öndər Heydər Əliyevin multikulturalizm haqqında fikirlərini, Lalə Cabbarova, Zöhrə Sadıqlı, Ülkər Əhmədova, Zərifə Mirməmmədova, Minarə Dostuzadə, Xəyalə Abbasova, Fidan Rzayeva, Nəzrin Babayeva tədbir iştirakçılarına multikulturalizmin müxtəlif modelləri haqqında məlumat verdilər.

Tədbirdə müxtəlif xalqların mahnı və rəqsləri tələbə və şagirdlər tərəfindən nümayiş edildi. Məktəbin VIf sinifinin şagirdləri fransız dilində "Destin" mahnısını təqdim etdilər. Sonra isə ingiliscə VIç sinfinin şagirdləri Rza Qasımov Sanya Tandonun "My best friend is a book", Nigar Bünyadzadə Robert Burnsun "My heart is in the Highlands" şeirlərini söylədilər. Tədbirin aparıcıları Həcər Mustafazadə, Aytən Quliyeva, Fidan Allahverdiyeva Azərbaycan, ingilis və rus dillərində məlumatlar verirdilər.

Məktəbin direktoru Cəmilə Ramazanova multikulturalizmin bu gün dünyada terrorçuluğa, rasizmə qarşı yönəlməsi haqqında məlumat verərək məktəbdə keçirilən bu tədbirin vacibliyi haqqında danışdı. Qeyd olundu ki, ADU-nun pedaqoji praktikaya qatılan müəllimləri və tələbələri məktəbin ictimai işlərində də fəal iştirak edirlər, şagirdlərin düzgün tərbiyə olunmasına istiqamətləndirilmiş silsilə tədbirlər keçirilir.

Azərbaycan Respublikası Təhsil İnstitutu Təhsil nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi 27 saylı məktəbdə təcrübə üzrə pedaqoq kimi təyin olunan Mahirə İbadova tədbirin mahiyyəti, Azərbaycanda multikultural dəyərlər sistemi haqqında məlumat verdi.

Tədbirin sonunda Təhsil fakültəsinin I kurs tələbəsi Murad Əliyevin ifasında Azərbaycan mahnıları "Ey Vətən", "Azərbaycan" səsləndi.

Rəmzi olaraq, Azərbaycan bayrağı altında dünya xalqlarının bayraqları səhnəyə çıxarıldı və tədbir "Azərbaycan var ol" mahnısının sədaları altında yekunlaşdı.

**Elnurə Əliyeva**
*Təhsil fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının müəllimi*

# Xocavənd xatirələrim



Azərbaycan Dillər Universitetinin rektoru, AMEA-nın həqiqi üzvü Kamal Abdullanın təşəbbüsünə əsasən universitetin tələbələri pedaqoji təcrübə keçmək üçün ölkəmizin müxtəlif rayonlarına təhkim olunublar.

ADU tarixində ilk dəfə həyata keçirilən və maraqla qarşılanan bu layihənin əsas məqsədi pedaqoji təcrübəni köçkün məktəblərində keçirməklə el-obasından didərgin düşmüş köçkün ailələrinə və onların övladlarına mənəvi dayaq olmaqdır.

6 tələbə ilə bərabər aprelin 27-dən mayın 24-nə kimi 4 həftəlik pedaqoji təcrübə keçmək üçün Ağcəbədi rayonunda yerləşən Xocavənd kənd 1 saylı tam orta köçkün məktəbinə təhkim olundum. Əfsuslar olsun ki, bəzi rayon məktəblərində, xüsusən də, təhkim olunduğumuz məktəbdə xarici dil müəllimlərinə böyük ehtiyac duyulurdu. Məhz buna görə də, biz böyük maraq və həvəslə qarşılandıq.

Mayın 2-də təhkim olunduğumuz məktəbdə şagirdlərə ADU haqqında geniş məlumat verdik. Məhz son bir il ərzində ADU-nun xarici ölkə universitetləri ilə geniş əlaqələr qurmasından, müəllim və tələbə mübadiləsinin inkişaf etdirilməsindən, o cümlədən universitetimizdə fəaliyyət göstərən dil və mədəniyyət mərkəzlərindən söz açdıq.

Akademik Kamal Abdullanın açılış mərasimində irəli sürdüyü məsələlər, tapşırıqlar biz müəllim və tələbələrin böyük marağına səbəb olmaqla yanaşı, həm də qarşımıza məsuliyyət qoydu. Biz layihə çərçivəsində biz çox tədbirlər keçirdik, qalibləri mükafatlandırdıq. Çin haqqında intellektual yarış, "9 May Qələbə Günü" münasibəti ilə veteranlar, şəhid ailələri və əlillərlə görüş, Ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş rəsmi və bədii tədbir, "Xəlifə günü" adlı dəyirmi masa, "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabının təqdimatı, məktəb şagirdləri arasında Cümhuriyyətin 100 illiyinə həsr olunmuş intellektual yarış, təhkim olunduğumuz məktəbin şagirdləri ilə Bayraq meydanı və Şəhidlər xiyabanında gəzinti bu qəbildəndir.

Bundan başqa həm təhkim olunduğumuz Xocavənd rayon Xocavənd kənd məktəbində, həm də Xocavənd rayon Muğanlı kənd məktəbində universitetimizin guşəsini açdıq. Bütün tədbirlərimizdə biz Xocavənd rayon Muğanlı kənd məktəbinin müəllim və şagird kollektivi ilə də əməkdaşlıq edirdik.

Pedaqoji təcrübənin müddəti bitdiyi gün biz ADU tərəfindən təhkim olunduğumuz məktəbə göndərilmiş kompyuter, proyektor və başqa hədiyyələri məktəb rəhbərliyi və şagirdlərə təqdim etdik.

Mayın 26-da pedaqoji təcrübəyə həsr olunmuş konfransın bağlanış mərasimi keçirildi. Konfransda Əlavə təhsil və pedaqoji təcrübə fakültəsinin dekanı Məmməd İsmayılov təcrübənin yekunlarına dair hesabatla çıxış edərək ümumi məlumat verdi. Sonra rayonlara təhkim olunmuş metodist və tələbələrin hazırladıqları videoçarx nümayiş olundu.

ADU-nun rektoru, akademik Kamal Abdulla bu layihənin yalnız pedaqoji təcrübə deyil, həmçinin hamı üçün həyat təcrübəsi, universitet üçün bütövlükdə imtahan olduğunu söyləyib: "Sevinirəm ki, hamımız bu imtahandan şərəflə çıxa bildik. Universitet ən vacib şərtlərdən birini özü üçün kəşf etdi və yumruq kimi birləşmək şansını qazandı. İnanıram ki, bu şansı bir daha əldən buraxmayacaq. Biz bü gün, həmçinin insanı kövrəldən, bu günə və gələcəyə inandıran səhnələrlə üzləşdik. Bu, çox vacib və faydalıdır. Olduqca şərəfli işin öhdəsindən gələn müəllimlərimizə, tələbələrimizə eşq olsun".

Mən də, bir metodist kimi bu layihəyə ilk gündən böyük həvəslə qoşuldum və arzu edirəm ki, bu layihə davamlı və uğurlu olsun.

**Gözəl Məmmədova**
*Təhsil fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının müəllimi*



## Xəlifələrin Xocavənd təəssüratları

### "4 ilin ən böyük 4 həftəsi"



Bildiyiniz kimi 2017/2018-ci tədris ilindən etibarən ADU-nun IV kurs tələbələri pedaqoji və istehsalat təcrübəsini sadəcə paytaxt Bakıda yerləşən məktəb və müəssisələrdə deyil, həm də regionlarda keçirlər. Rektorumuz Kamal Abdullanın yaratdığı bu şansdan yararlanan IV kurs tələbələrindən biri də mən oldum. 14 həftəlik pedaqoji təcrübənin son 4 həftəsini Ağcabədi şəhərində yerləşən məcburi köçkünlər üçün salınmış Xocavənd rayon Xocavənd kənd 1 saylı tam orta məktəbdə keçdim. Əminliklə qeyd edə bilərəm ki, bu 4 həftə mənim tələbəlik həyatımın ən maraqlı 4 həftəsi oldu. Bakıda bizim üçün ayrılmış avtobusa əyləşib yola düşdüyümüz andan, məktəbə ilk dəfə daxil olduğumuz saniyəyə qədər içimdə hələ də, kiçik də olsa bir tərəddüd, həyəcan var idi. Oradakı müəllimlik fəaliyyətimizə başlamamışdan öncə təcrübə yoldaşlarımızla birlikdə 4 həftə yaşayacağımız qəsəbədə kəşfiyyat xarakterli gəzintiyə çıxmağı qərara aldıq. Yaşadığımız binanı tərk etdiyimiz andan bəri qəsəbə sakinlərinin olduqca mehriban amma sual dolu baxışları üstümüzdən əskik olmadı. Qəsəbəyə gəlməyimizin əsas səbəbinin orada yerləşən tək məktəbə 4 həftəlik də olsa müəllimlik olduğunu bilənden sonra o sual dolu baxışları doğmalıq və biraz da təəccüb əvəz etdi. Dedikləri isə "Yatsaq yuxumuza da girməzdi ki, bu yaşda tələbələr təcrübə keçmək üçün bizim qəsəbəni seçərlər" oldu. Niyə bu qədər təəccübləndiklərinin səbəbini də elə həmin gün öyrəndik. Məktəbdəki şagirdlərin dəcəllikləri, dərslərə biganə yanaşmaları qəsəbə sakinlərinin dillərinə dastan olmuşdu. Doğrusu, bizə danışdıqları hadisələr biraz gözümü qorxutmuşdu. Yenicə müəllimlik həyatına başlayan təcrübəçi tələbə üçün bunlar biraz çox idi sanki. Şagirdlər haqqında bütün deyilənləri unutmağa çalışıb həftənin bazar ertəsi günü saat 8:00-da ilk dərsimizi keçmək və məktəblə tanış olmaq üçün artıq məktəb binasının qarşısında idim. Təhkim olunduğumuz məktəbin pedaqoji və inzibati heyəti direktorla birlikdə artıq bizi gözləyirdilər. Qapı önündəki bir neçə dəqiqəlik isti və səmimi qarşılanmadan sonra 6 təcrübəçi tələbəni müxtəlif siniflərə təhkim etmək üçün müəllimlər otağına keçdik. Bölgü başlayanda metodistimiz "Oruc, X sinfin öhdəsindən sən yaxşı gələrsən" - dedi. Bu sözlər əvvəldən də daxilimdə olan özgüvəni bir az da artırdı. Ləvazimatları götürüb sinif otağına keçmək üçün müəllimlər otağını tərk etdim. Dərs arası fasilə yenicə bitmişdi. Onuncuların otağına daxil oldum. Elə həmin anda öz-özümə: "Ümid edirəm metodistimiz bayaqkı sözləri söyləyərkən bu otağın tamamilə boş olduğundan xəbərsiz idi"-dedim. Həqiqətən də, elə imiş. İçəridə məktəb direktorunun da olduğu müəllimlər otağına daxil olduqdan sonra onuncuların idman zalında olduğunu öyrəndim. Onları dərs otağına göndərdikdən sonra sinifə məni təqdim etmək üçün direktor da mənimlə birlikdə otağa daxil oldu. Direktordan "Uşaqlar, növbəti 4 həftə ərzində sizə ingilis dili fənnini Oruc müəllim tədris edəcək"-sözlərini eşitdiyim andan etibarən, bir az da şagirdlərin üzündəki mimikaların köməyi ilə işin əsl məsuliyyətini, çətinliyini və ciddiliyini tam dərk etməyə başladım. İlk dərsi başa vurub sinif otağından dəhlizə çıxanda məktəbdəki bütün şagirdlərin gözündəki sevinci görmək heç də çətin olmadı. Məktəbdəki işimizi bitirdikdən sonra evə yollandıq. Axşamçağı yenə təcrübəçi yoldaşlarımla birlikdə qəsəbədə gəzintiyə çıxmağa qərar verdik. Bu dəfə artıq qəsəbədə gəzdiyimizi görən hər kəs "salam müəllim", "necəsiniz müəllim?"- deyə müraciət edirdi. Həmin an artıq ilk başlardakı tərəddüd tamamilə yoxa çıxdı. O tərəddüdü bir az fərəh, bir az sevinc, bir az da qürur hissi əvəz etdi.

Bütün bunlar orada keçirdiyimiz sadəcə 2-3 günün təəssüratı idi. Bütün 4 həftəni isə yazılara yerləşdirmək olduqca çətindir. Bu məsuliyyətli, xatirə dolu 4 həftə ömrümüzün sonuna qədər yaddaşlarımızdan silinməyəcək. Oradan ayrılarkən bizi yola salan şagirdlərimizin göz yaşları, ələqənin kəsilməməsi üçün əlaqə vasitələrimizi qeyd etmələri, onların belə qayğıya, diqqətə nə qədər ehtiyacları olduğunu göstərir. Növbəti il pedaqoji təcrübəyə gedəcək tələbələrin oradakı şagirdləri bu qayğıdan məhrum etməyəcəyini ümid edirəm. Çünki onlar bizim üçün çox böyük bir dəyər, xəzinədirlər. Onlar bizim gələcəyimizdir. Gələcəyimizin daha sağlam, daha intellektual, daha savadlı olması üçün əlimizdən gələn hər şeyi etmək isə hər bir müəllimin, hər bir vətəndaşın önçəliyi olmalıdır.

**Oruc Nəsirov**
*Təhsil fakültəsinin 425 b qrup tələbəsi, Tədris işləri üzrə Xəlifə prorektor*

### Dörd həftəlik təcrübə, bir ömürlük xatirə



Hörmətli rektorumuz akademik Kamal Abdullanın təşəbbüsü ilə universitet tələbələrinin hərtərəfli inkişafı üçün müxtəlif profilli layihələr həyata keçirilir. Bu layihələrdən biri də, "Regionlarda təcrübə" layihəsidir. Belə ki, bu ildən etibarən universitetimizin IV kurs tələbələri pedaqoji və istehsalat təcrübələrini yalnız Bakı şəhərində deyil, həmçinin müxtəlif regionlarda da keçmək şansı qazanırlar. Bu layihənin ilk şanslı iştirakçılarından biri də mən oldum. 10 həftə müddətində Bakı şəhəri 266 saylı tam orta məktəbdə təcrübə keçdikdən sonra təcrübəmin son 4 həftəsini Ağcabədi rayonunda yerləşən Xocavənd rayon Xocavənd kənd 1 saylı tam orta məktəbdə keçirdim. Öz doğma yurdlarından didərgin düşmüş şagirdlərimizlə 1 ay müddətində bir yerdə olmaq, onların gözlərindəki gülüşdə təcəssüm edən sevgini duymaq əvəzolunmaz bir hissdir. Şagirdlərin sevgisini, hörmətini qazanmaq sözlərlə ifadə olunmayacaq qədər möhtəşəmdir. Yalnız məktəbdə şagirdlərin deyil, küçədə olarkən, yolda gedərkən hətta valideynlərin də "Salam müəllim!" deməyi insanı qürurlandırır və düşündürür.

11 illik şagird, 4 illik tələbəlik dövrümdə müəllimlərimə yaşatdığım hər bir çətinliyi və çətin olduğu qədər şərəfli olan bu peşənin necə uca olduğunu daha yaxşı başa düşürdüm. İlk gündən qəsəbə sakinləri "Uşaqlar biraz çətindir, sizi incidəcək" - deyəndə düşündüm yoqin seçimimi düz etməmişəm. Məktəbdə fəaliyyətə başladığımız gündən isə hər şeyi tam doğru etdiyimi anladım. VI sinifdə ilk dərs boş olduğundan məktəbin direktor müavini Adil müəllim bizi tanışlıq üçün məhz həmin sinifə apardı. Uşaqlar isə dərs bitəndə hamısı xahiş etdilər ki, Elşən bizə müəllim siz dərs keçin. Onlarla dərsdə sakit olacaqlarına dair razılaşma əldə etdikdən sonra VI sinifə təhkim olundum. Bir ay müddətində hətta dərsə gəlməyən uşaqlar da dərsə gəlirdi. Yalnız dərs deyil, təşkil etdiyimiz müxtəlif tədbirlərdə də sinifimin şagirdləri fəal iştirak edirdilər. Bunlar isə bir müəllimi xoşbəxt edəcək ən gözəl səbəblərdir. Yalnız öz sinifim deyil, bütün şagirdlər elə mənim öz sinifim kimi hörmət bəsləyirdilər. Bunun ən böyük sübutunu isə Bakıya qayıtdığımız gün gördüm. I sinifdən tutmuş XI sinifə qədər hamı, əzilmiş bir vərəq, tutula-tutula yazan bir qələm götürərək həyəcanla arxamca qaçıb "müəllim nömrənizi yazın da", "müəllim imzanızı çəkin də" "müəllim buna da", "müəllim mənə də" və s. deyərək əlaqəmizi itirməməyə çalışırdılar. Hələ ağlayanları demirəm. Sanki bir də görməyəcəkmiş kimi, öz doğmalarını itirənlər kimi göz yaşları dayanmırdı. Həm adamı duyğulandırır, həm qürurlandırdı bu mənzərə. Onu yalnız yaşamaq lazımdır, sözlərlə ifadə etmək çətindir.

Biz proqrama əsasən ibtidai siniflərə dərs keçmirdik. Bir dərs günü məktəbin direktor müavini Gülbuta xanım mənə yaxınlaşaraq gülə-gülə dedi ki, "Elşən müəllim bu 3-cü siniflər sizi istəyir. Elşən müəllim bizə dərs keçsin deyirlər". Baxdım ki, hamısı müəllimlər otağının qarşısında yığılıb. Üzlərində bir ümid vardı ki, sanki dərs keçəcəyim 45 dəqiqə onlara bir ömür bəs edəcəkdi. Şübhəsiz ki, razılaşdım. "Problem deyil, keçərəm. Uşaqlar keçin sinifə gəlirəm"-deyəndə müəllimlər otağından sinifə qədər "uraaaaaa" qışqıraraq qaçdılar. Bütün 45 dəqiqəni oxuyan, oxumayan hər bir şagird ayaq üstə müəllim stolunda ətrafıma yığılaraq dərsə elə maraqla qulaq asırdılar ki... Sadəcə möhtəşəm və əvəzsiz hisslərdir bunlar. Hələ Bakıya qayıdandan sonra zəng də edirlər. Hər gün halımı xəbər alırlar. Bu isə "xoşbəxtlik pulla alınmır" deyimini bir daha isbat edir mənə. Xatirələr çoxdur, hamsını burada yazmaq isə mümkünsüzdür. Bax, budur rayonda keçdiyimiz təcrübənin özəlliyi. Növbəti illərdə təcrübəyə gedəcək tələbə dostlarımı bu layihədə aktiv olmağa, təcrübənin ən azı 4 həftəsini rayonlarda keçməyə çağırıram. Çünki ən çox onların sevgiyə ehtiyacı var. Ən çox onların sizə ehtiyacı var. Əmin olun, sizi elə sevəcəklər ki... Təcrübə bitdikdən sonra da, bütün ömürləri boyu o vaxt bizim filankəs müəllimimiz vardı deyəcəklər. Unutmayın məni dostlar. Ömür yalnız təqvimdəki günlərin toplumu deyil. Onu gözəl günlərlə zənginləşdirmək, insanların sevgisini qazanmaqla mənalı etmək lazımdır. Əmin olun, ölkənin hər yerində sizi sevəcək olan, sizi gözləyən bir qrup insan var. İnsan sevildiyi yerdə daha xoşbəxt olur.

**Elşən Qəhrəmanov**
*Təhsil fakültəsinin 420a qrup tələbəsi, Tərbiyə işləri üzrə Xəlifə prorektor*

POLİQLOT

№ 4 (248) may-iyun 2018 | Təsisçi: Azərbaycan Dillər Universiteti | www.adu.edu.az







# ADU-nun rəssam tələbələri




*Azərbaycan Dillər Universitetinin tələbələri təhsildəki uğurları və nailiyyətləri, istedadları, ali təhsil müəssisəsinin sosial-ictimai həyatındakı aktiv fəaliyyətləri ilə hər zaman seçilirlər. Tələbələrimizin bu uğurları təkcə universitetlə kifayətlənmir, onlar həm də respublika səviyyəli müxtəlif tədbir və yarışlarda mühüm nəticələr əldə edərək Azərbaycan Dillər Universitetini layiqincə təmsil edirlər. Budəfəki yazımızda isə tələbələrimizin rəssamlıq qabiliyyətindən söz açacağıq.*

*Yəqin ki, çoxunuz universitetin həyətyanı sahəsindəki divarlara həkk olunan müxtəlif çalarlı rəsmlərdən xəbərdarsınız. Bu rəsmlər ADU rəhbərliyinin təşəbbüsü əsasında tələbələr tərəfindən çəkilən sənət nümunəsidir. Hər zaman insanın üzünə ağaran boş divarlar sözügedən təşəbüsün həyata keçirilməsindən sonra rəngarəngliyi, gözəlliyi və göz oxşayan görünüşü ilə insanı cəlb edir, onun estetik zövqünü oxşayır. Məlumat üçün qeyd edim ki, dünyanın bir çox ölkələrində rast gəlinən bu divar rəsmləri*







*“Street Art” (Küçə sənəti) adı ilə məşhurlaşıb. Bəs küçə sənəti və onun mahiyyəti nədən ibarətdir? İctimai yerlərdə yaradılmış icazəsiz təsviri incəsənət növü olan küçə sənəti ətrafdakı binalar, küçələr və digər səthlərdə cəmiyyətə nümayiş etdirilən bir sənət formasıdır. Bir çox hallarda rəssamın yaşadığı cəmiyyət haqqında ictimaiyyətə açıqlama verməsi kimi xarakterizə olunur.*

*Universitetimizin divarlarında yer alan şəkillər isə müxtəlif mövzu və mənaları özündə əks etdirir. Xəzər dənizi, Bakı şəhərinin simvollarına çevrilən Qız qalası, Alov qüllələri, Heydər Əliyev Mərkəzi, Şirvanşahlar Sarayı Kompleksi, Atəşgah məbədi, beynəlxalq tədbirlərə ev sahibliyi edən Kristal zal, bundan başqa Azərbaycan ornament sənətinin çox yayılmış bəzək elementlərindən biri, badamabənzər naxış növü olan Buta, eləcə də universitetin idman və tələbə həyatını əks etdirən müxtəlif mövzulu rəsmlərlə yanaşı üçölçülü formada “ADU”, universitetin devizinə çevrilən “Docendo Discimus” (Öyrədərək, Öyrənirəm) yazısı və canlandırılan bir çox maraqlı rəsmlər bu qəbildəndir.*

*Universitet rəhbərliyi və tələbələr tərəfindən maraqla qarşılanan bu layihənin yaradıcı heyətinin də fikirlərini sizinlə bölüşürük. Müsahibimiz Filologiya və jurnalistika fakültəsinin 231-ci qrup tələbəsi Mirvari Əhmədlidir. Mirvari xanım qeyd edir ki, təşəbbüsün gerçəkləşməsi üçün rəsm qabiliyyəti olan tələbələrə layihədə iştirak etməklə bağlı rəhbərlik tərəfindən müraciət olunub. Onun da rəsm çəkməyə böyük marağı olduğundan bu şansı dəyərləndirmək qərarına gəlib.*

**-Rəsm çəkən tələbələrin bir araya gəlməsi prosesi haqda nə deyə bilərsiniz?**

-Rəsm çəkmək qabiliyyəti olan insanların demək olar ki, özünəməxsus baxış bucağı, fərqli dünyaları olur. Düşünürəm ki, onların bir araya gəlməsi də eynilə fərqli və möhtəşəm hissdir. Deyə bilərəm ki, biz də bu hissi yaşayır və bir-birimizi çox gözəl anlayırdıq.

**-Bu rəsmləri çəkməkdə məqsədiniz nədir?**

-Bizim təhsil aldığımız universitet dünyaya açılan bir ali təhsil müəssisəsidir. Nüfuzlu əcnəbi universitetlərlə yaradılan əlaqələr hesabına dünyanın dörd bir yanından universitetimizə təhsil almaq üçün tələbələr gəlir. Bizim də bu rəsmləri çəkməkdə məqsədimiz universitetimizə gələn qonaqların və burada təhsil alan əcnəbi tələbələrin zövqünü oxşamaq, onlara Azərbaycan mədəniyyətinin bəzi ornamentlərini əyani şəkildə nümayiş etdirmək, eyni zamanda həyətyanı sahəni daha da gözoxşayan etmək idi. Məncə, biz bu işin öhdəsindən layiqincə gələ bildik.

**-Siz hansı rəsmi çəkdiniz və o rəsmlə ətrafınızdakılara hansı mesajı göndərməyi hədəf seçmisiniz?**

-Biz universitetin rəsmi adının ixtisar olunmuş formasını rəngli boya və spreylərlə üçölçülü formada işlədik. Onun ətrafına tələbənin istifadə edə biləcəyi və maraq dairəsinə aid olan bütün əşyaları, simvolları çəkdik. Məsələn həmin şəkillər sırasında “WIFI”-da var. Heç “WIFI”-sız tələbə təsəvvür edirsiniz? (gülür). Bir sözlə, çəkdiyimiz həmin şəkildə çalışdıq ki, tələbə həyatını canlandıraq.

**-Çəkəcəyiniz şəkillər haqda seçim öz ixtiyarınıza verilmişdi, yoxsa rəhbərlik tərəfindən təyin edilirdi?**

-Çəkdiyimiz şəkillərin ideyası özümüzə məxsus olsa da, onların forma və məzmunu universitet rəhbərliyinin tövsiyələri və qarşılıqlı fikir mübadiləsi əsasında müəyyənləşdirildi. Biz də çalışdıq ki, bizə göstərilən etimadı doğruldaq.

**-Sizin çəkdiyiniz rəsmlər artıq sosial şəbəkələrdə yayılmağa başlayıb və haqqınızda müsbət rəy formalaşıb. Bu necə hissdir? Təəssüratlarınız necədir?**

-Çəkdiyimiz rəsmlər haqqında müsbət rəyin formalaşması təbii ki, möhtəşəm və qürürverici hissdir. Əziyyətimizin təqdir edilməsi və gözəl qarşılanması, ən əsası rektorumuz akademik Kamal Abdulla tərəfindən alqışlanması qədər ikinci gözəl bir hiss yoxdur. Humanitar ixtisaslarda təhsil almağımıza rəğmən rəssam tələbələr adını qazanmaq hər tələbəyə nəsib olmur. Bu baxımdan biz şanslıyıq.

**-Bu proses ərzində hansısa yaddaqalan maraqlı hadisələr baş verib?**

-Bu, elə bir mühit idi ki, yaddaqalan hadisələrin yaşanmaması qeyri-mümkün idi. Əlbəttə yaddaqalan hadisə çox olub. Saçımı düzəltmək üçün əlimin boyalı olmasını unudaraq üzümə vurmağım, boyalar bitərkən tələskənliklə ən uzaq mağazaya getməyimiz, amma alacağımız həmin boyanın adının yadımızdan çıxması yaddaqalan hadisələrdəndir.

**-Rəsmlərə baxarkən hiss olunur ki, onların müəllifləri istedad sahibidir. Bəs, heç düşünmüsünüz ki, istedadınıza uyğun sahə üzrə təhsil alsaydınız bu, sizin üçün daha perspektivli nəticələr vəd edərdi?**

-Düşünürəm ki, insan öz məqsədi və idealı arxasınca gedərsə və daxilində gizlənən istedadı kəşf edə bilərsə, daha çox uğura imza ata bilər. Əlbəttə, rəsm sənəti haqqında hər zaman düşünmüşəm. Rəsm mənim həyatımın bir parçasıdır. Amma mənim yazarlıq qabiliyyətim də olduğundan və əlavə dil öyrənmək istədiyimdən Fransız dili və ədəbiyyatı ixtisasını seçdim. Bununla həm ədəbiyyatla bağlı biliklərimi inkişaf etdirmiş oldum, həm də yeni dil öyrəndim.

**-Rəsmə olan marağınız nə vaxtdan yaranıb? Ümumiyyətlə bu sahə üzrə təhsiliniz varmı?**

-Rəsmə olan marağım kiçik yaşlarımdan yaranıb, təxminən 8 yaşımdan bəri rəsmlə həvəskar formada məşğul oluram. Bu sahə üzrə təhsilim olmasa da, gələcək planlarım arasında rəsm sənəti də öz əksini tapır.

## “HƏR MÜSBƏT RƏY BİZDƏ HƏVƏS YARADIR, MƏNFİ RƏY İSƏ İNKİŞAF ETMƏYİMİZƏ SƏBƏB OLURDU”

Uzun müddətdir ki, rəsmlə həvəskar şəkildə məşğul olan Təhsil fakültəsinin 104 b qrup tələbəsi İlahə Abbasova yaradılan bu imkanı dəyərləndirməklə həm də əl qabiliyyətini sınağa çəkib. Bu təşəbbüsün ərsəyə gəlməsində komanda işinin əhəmiyyətindən bəhs edən tələbəmiz birlik olduqda möhtəşəm işlərə imza atmağın mümkünlüyündən danışıb və əldə edilən nəticənin bunun bariz nümünəsi olduğunu bildirib. Rəsmlərin bəzən sadəcə gündəlik həyatdakı stress və yorğunluqdan, monotonluqdan uzaqlaşmaq üçün yaradıldığını deyən İ.Abbasovanın rəsm çəkməkdə ilkin motivasiyası işindən zövq almasıdır. İ.Abbasova əl işlərinin sosial şəbəkələrdə yayılması ilə yaranan müsbət rəy haqqında təəssüratlarını bizimlə bölüşüb: “Biz dostlarımızla bu barədə heç düşünmədən ancaq öz işimizə adaptasiya olmuşduq. Çalışırdıq ki, ideyalarımızı ən yaxşı şəkildə canlandıraq. Amma əlbəttə, hər müsbət rəy bizdə həvəs yaradır, mənfi rəy isə inkişaf etməyimizə səbəb olurdu. Biz Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında təhsil alsaydıq sadəcə bir sahə üzrə inkişaf edəcəkdik. Həm də, təhsilimiz rəsm sahəsi üzrə olsaydı bizim əl işlərimiz normal qarşılanar və belə qiymətləndirilməzdi”.

## “MƏQSƏDİMİZ UNİVERSİTET HƏYATINA RƏNGARƏNG AB-HAVA VƏ KREATİVLİK BƏXŞ ETMƏK İDİ”

Filologiya və jurnalistika fakültəsinin 232-ci qrup tələbəsi Ülkər Kazımlı da digər yoldaşları kimi uşaqlıq vaxtlarında rəsm çəkməyə maraq göstərib, hətta onun bu marağına biganə qalmayan valideynləri onu rəssamlıq kursuna da yönləndiriblər. Ü.Kazımlı müxtəlif dövrlərdə rəssamlıq sahəsi üzrə müəyyən müəssisələrdə təhsil alaraq əl qabiliyyətini formalaşdırıb. Beləcə, bu sahə üzrə əl qabiliyyəti olan tələbəmiz universitet rəhbərliyi tərəfindən irəli sürülən təşəbbüsü dəyərləndirmək üçün həmin şansı əldən verməyib. Tələbəmiz qeyd edir ki, bu təklifin onun üçün inanılmaz dərəcədə maraqlı olması və rəsm sənətini sevməsi onu bu layihənin bir parçasına çevirib: “Məqsədimiz təhsil aldığımız universitetə rəngarəng ab-hava, kreativlik bəxş etmək, eləcə də, tələbə həyatına maraq qatmaq idi. Buna görə də, müxtəlif fakültələrdə təhsil alan istedadlı tələbələr olaraq bir araya gəldik və bu təşəbbüsün gerçəkləşməsinə səy göstərdik. Bizim komandanın üzərinə düşən vəzifə universitetin adının ixtisar olunmuş formasının loqosunu yaratmaq idi. Müxtəlif rənglərdən istifadə edərək bu loqonu və onun ətrafında tələbə həyatını əks etdirən kiçik detallar çəkdik. Bu, bizim “Street art” (Küçə sənəti) layihəmizə daha da kreativlik qatmış oldu”.

## “TƏLƏBƏLƏRİN BACARIQLARININ ÜZƏ ÇIXARILMASI TƏQDİRƏLAYİQ VƏ OLDUQCA QÜRURVERİCİDİR”

“Mənim fikrimcə belə bir işin təşkil edilməsi möhtəşəmdir. Yəni, tələbələrin bu və ya başqa bacarıqlarının üzə çıxarılması, həmçinin bunun ictimaiyyətə və universitet kontingentinə tanıdılması təqdirəlayiq və olduqca qürurvericidir. Mənim rəsmlərim Buta və əlüzyuyanın üzərindəki divara çəkilən dəsmal şəklidir. Buta bizim simvollarımızdan biridir. Amma mən burada müəyyən qədər fərqli mənalar yaratmağa çalışmışam. Yəni, bu rəsm ənənəvi butadan fərqli mənalar canlandırır. Butanın üzərindəki göy qurşağı ayrı-ayrı tələbələri əks etdirir, ulduz isə onların ortaq cəhətləri olan universitet həyatıdır ki, buradan istədikləri nəticəni əldə edib gedirlər. Düşən ulduz təsvirində bunlara əsaslanmışam”. - Bu sözləri Təhsil fakültəsinin 104 b qrupunda təhsil alan Ləman Şükürova deyib. Son vaxtlar rəsmlə daha çox maraqlanan L.Şükürova daha çox rəngsiz rəsmlər, abstraktlar çəkir.

“Poliqlot” qəzeti olaraq tələbələrimizə təhsillərində, yaradıcı fəaliyyətlərində və gələcək həyatlarında uğurlar arzulayır, nailiyyətlərinin davamlı olmasını diləyirik.

**Cavid Qafulov,**
*“Poliqlot”*

## ETİBARSIZ SAYILIR

Təhsil fakültəsinin 106a qrup tələbəsi Mehdiyeva Aytac Aslan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təhsil fakültəsinin 124c qrup tələbəsi Həsənova Günay Elşən qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Tərcümə və mədəniyyətşünaslıq fakültəsinin 159-cu qrup tələbəsi Piriyeva Fidan Ramazan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Tərcümə və mədəniyyətşünaslıq fakültəsinin 159-cu qrup tələbəsi Paşazadə Mirvari Namiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Tərcümə və mədəniyyətşünaslıq fakültəsinin 363-cü qrup tələbəsi Əliyeva Rübabə Hilal qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Filologiya və jurnalistika fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının əməkdaşları həmin kafedranın baş müəllimi
**Hafiz Əfqan oğlu Rəhimovun**
vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

| | | | | | |
|---|---|---|---|---|---|
| **Məsul redaktor: Xədicə Əliyeva** | **Ünvan:** Az 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134. Əlaqə telefonları: 440-29-31; 441-22-79 | Qəzet «POLİQLOT»un redaksiyasında yığılıb, səhifələnib və «Azərbaycan» nəşriyyatında ofset üsulu ilə çap olunub. Qeydiyyat № 720 | Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. | Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb. Qeydiyyat №-si 1557 | Tirajı: 2000 Sifariş: 2011 |